## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMDÜNYA VƏ AVRASİYA YƏHUDİ KONQRESLƏRİ RƏHBƏRLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ümumdünya Yəhudi Konqresinin, Avrasiya Yəhudi Konqresinin və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbərlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ümumdünya və Avrasiya Yəhudi konqresləri...



Bax səh. 2

## PREZİDENT İLHAM ƏLİYEV: BİZİM SİYASƏTİMİZİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI DAYANIR

Son 15 ildə iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıran Azərbaycan özünün geniş imkanlarına əsaslanaraq dərinməzmunlu sosial siyasət həyata keçirib. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, ölkəmizdə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşları və onların maraqları dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 02 may 2019-cu il, cümə axşamı / № 079 (5454). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


YAP

# Prezident İlham Əliyev Uruqvayın xarici işlər nazirini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Ağstafa rayonunun Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

### ABŞ nümayəndə heyətinə Azərbaycanın multikultural dəyərləri barədə məlumat verilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı mayın 1-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində səfərdə olan ABŞ nümayəndə heyətinin üzvləri ilə görüşüb. Bu barədə AZƏRTAC-a Komitənin mətbuat xidmətindən məlumat verilib. Komitə sədri Mübariz Qurbanlı Azərbaycanın multikultural dəyərlərindən və çoxəsrlik tolerantlıq ənənələrindən, nümunəvi dövlət-din münasibətlərindən, DQİDK-nın fəaliyyətindən söz açıb. Bildirib ki, ölkəmizdə tarixboyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzdə də yüksək şəkildə davam edir. O, bu sahədə cəmiyyətdə formalaşmış dözümlülük, tolerantlıq və multikultural ənənələrlə yanaşı, düşünülmüş dövlət siyasətinin...

Bax səh. 4

### Formula 1 SOCAR Azərbaycan Qran-Prisini izləmək üçün Bakıda 74 ölkədən azarkeşlər olub

Bakıda keçirilən Formula 1 SOCAR Azərbaycan Qran-Prisi çərçivəsində yarış sessiyalarını yerində canlı izləməyə, həmçinin həftəsonunda "Baku Crystal Hall"da dünya ulduzlarının iştirakı ilə keçirilən axşam...

SOCAR FORMULA 1 SOCAR AZERBAIJAN GRAND PRIX 2019

Bax səh. 8



## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ İLLİK ÜMUMİ YIĞINCAĞI KEÇİRİLİB

Mayın 1-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) illik ümumi yığıncağı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva...

Bax səh. 2

## İCBARİ TİBBİ SIĞORTANIN GENİŞ TƏTBİQİ ÇOX CİDDİ SOSİAL ADDIM OLACAQ

Son illər Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatların həyata keçirilməsi, əhalinin sağlamlığının etibarlı şəkildə qorunması, vətəndaşların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu sahədə dövlət siyasətinin prioritetlərini təşkil edir. Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi və səhiyyənin maliyyələşmə sisteminin təkmilləşdirilməsi də bu islahatların mühüm tərkib hissəsidir. Qeyd edək ki, bir neçə ildir ki, ölkəmizdə icbari tibbi sığorta sisteminə keçidlə bağlı Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədovun rəhbərliyi ilə işçi qrupu yaradılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu sistemin tətbiqi ilə əlaqədar Mingəçevir, Yevlax və Ağdaşda pilot layihələr həyata keçirilir. Ümumiyyətlə, icbari tibbi sığortanın məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir. Hökumətin sosial siyasətinin...

Bax səh. 7



## QIRXDAN ÇOX ÖLKƏNİN DİPLOMATLARI QAZAX RAYONUNUN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI İLƏ YAXINDAN TANIŞ OLUB

Aprelin 30-da Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik korpusun nümayəndəliklərinin rəhbərləri və onların xanımları ölkəmizin...

Bax səh. 7

### Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində III akademik forum keçirilir

Mayın 1-də Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması" mövzusunda III akademik forum keçirilir. AZƏRTAC xəbər verir ki, UNESCO-nun mədəniyyətlərarası dialoq şöbəsinin müdiri Ann-Belinda Preisin moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva mədəniyyətlərarası dialoq sahəsində müzakirələrin xüsusi əhəmiyyəti olduğunu qeyd edib. Bildirib ki, bu sahədə bütün dünyada elmi araşdırmaların artması təqdirəlayiqdir. Mədəniyyətlərarası dialoqun elmi cəhətdən araşdırılması olduqca əhəmiyyətlidir. Sevda Məmmədəliyeva Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüskarı olduğu "Bakı Prosesi" barədə ətraflı məlumat verib. Bildirib ki, "Bakı Prosesi" çərçivəsində Azərbaycanda...

Bax səh. 4

### Ötən il Azərbaycan ilə Meksika arasında ticarət dövriyyəsi 35 faiz artıb

Keçən il Azərbaycan və Meksika arasında ticarət dövriyyəsi 35 faiz artıb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə...



Bax səh. 5

### Uğurlu islahatların alternativi yoxdur

Geridə qoyduğumuz il, o cümlədən cari ilin ilk rübü sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Prezident İlham Əliyev...



Bax səh. 4

### İdris Cəzairi: Azərbaycan mədəniyyətlərarası və dinlərarası əlaqələr prosesində hərəkətverici qüvvəyə çevrilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mayın 1-də İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq...



Bax səh. 4

### Paytaxt gənclərinin iştirakı ilə "Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır" mövzusunda elmi-praktik konfrans keçirilib

Mayın 1-də Bakı Şəhər İcra Hakimiyyətində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş...



Bax səh. 5

# Prezident İlham Əliyev Uruqvayın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Uruqvay Şərq Respublikasının xarici işlər naziri Rodolfo Nin Novoanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Uruqvay xarici işlər naziri Rodolfo Nin Novoanın ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərin genişləndirilməsi istiqamətində səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirib. Eyni zamanda, Prezident İlham Əliyev Rodolfo Nin Novoanın Azərbaycanda görüşləri zamanı iqtisadi əməkdaşlığın və biznes strukturları arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı perspektivlərin müəyyənləşdiriləcəyinə əmin olduğunu deyib. Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini qeyd edib.

Uruqvay Şərq Respublikasının xarici işlər naziri Rodolfo Nin Novoa Prezident İlham Əliyevlə görüşdən məmnunluq hissi keçirdiyini qeyd edərək, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı zəmin yaratdığını deyib. O, Azərbaycan ilə Uruqvay arasında iqtisadi əməkdaşlığın, o cümlədən ticarət dövriyyəsinin artırılmasının da zəruri olduğunu vurğulayıb. Uruqvaylı nazir ölkəsinin bütün dövlətlərin ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqeyin dəyişməz olaraq qaldığını diqqətə çatdırıb. Rodolfo Nin Novoa Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edəcəyindən məmnunluğunu ifadə edib.

Görüşdə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulanıb və bu Forumun beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı ölkələrimiz arasında kənd təsərrüfatının müxtəlif sahələrində əməkdaşlığın inkişafı üçün böyük perspektivlərin olduğu bildirilib.

# Prezident İlham Əliyev Ümumdünya və Avrasiya Yəhudi konqresləri rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ümumdünya Yəhudi Konqresinin, Avrasiya Yəhudi Konqresinin və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbərlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ümumdünya və Avrasiya Yəhudi konqresləri rəhbərlərinin ölkəmizə geniş tərkibdə səfərinin əməkdaşlığın müzakirəsi üçün yaxşı imkan yaratdığını deyib. Prezident İlham Əliyev əsrlər boyu ölkəmizdə müxtəlif xalqların, o cümlədən yəhudilərin əmin-amanlıq şəraitində bir ailə kimi yaşadığını vurğulayaraq, bu gün də Azərbaycanın mədəniyyətlərarası dialoqun uğurla həyata keçirildiyi bir ölkə kimi tanındığını qeyd edib. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq aləmdə sivilizasiyalararası əlaqələrin təmin edilməsi işinə böyük töhfə verdiyini deyib.

Çıxış edən qonaqlar Prezident İlham Əliyevlə görüşdən məmnunluq hissi keçirdiklərini bildiriblər. Onlar ölkəmizdə gördükləri inkişaf proseslərinin nümayəndə heyətinin üzvlərində dərin təəssürat doğurduğunu qeyd ediblər.

Söhbət zamanı Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunulub, bu tədbirin xalqlararası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi vurğulanıb.

# Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağı keçirilib






Mayın 1-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) illik ümumi yığıncağı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Baş nazirin müavini Əli Əhmədov, müxtəlif dövlət qurumlarının və ali təhsil müəssisələrinin rəhbərləri, AMEA-nın həqiqi və müxbir üzvləri, institut və təşkilatlarının direktorları, KİV nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə AMEA-nın elmi nailiyyətlərini əks etdirən sərgi ilə tanış olublar. Sərgidə akademiyanın institut və təşkilatları, regional bölmə və elmi mərkəzləri, eləcə də Rəyasət Heyəti üçün ayrılmış guşələrdə Azərbaycan, rus və ingilis dillərində müxtəlif nəşrlər və istehsal olunan yeni məhsullar nümayiş etdirilib.





Tədbirdə Azərbaycan elminin inkişafında xüsusi xidmətləri olan görkəmli alimlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib.

AMEA-nın prezidenti, akademik Akif Əlizadə tədbir iştirakçılarını ümumi yığıncağın gündəliyi ilə tanış edib.

Sonra akademik Akif Əlizadə AMEA-nın 2018-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyətinə dair məruzə ilə çıxış edib. AMEA-nın rəhbəri dövlət siyasətinin mühüm strateji hədəflərinə uyğun olaraq, 2018-ci ildə də respublikamızda elm və təhsilin inkişafı istiqamətində görülən mühüm tədbirlər və əldə edilən uğurlar haqqında məlumat verib: **"Ötən il AMEA tərəfindən elmi-texniki potensialın inkişaf etdirilməsi, multidissiplinar tədqiqatların aparılması, beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, elm, təhsil və iqtisadiyyat arasında əlaqələrin gücləndirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, elmi tədqiqat fəaliyyətinin əlaqələndirilməsi, elmi potensialın ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilməsi və digər istiqamətlərdə mühüm işlər görülüb".**

Akademik Akif Əlizadə Prezident İlham Əliyevin ölkədə "Elm Günü"nün təsis edilməsi haqqında 2018-ci il 9 aprel tarixli Sərəncam imzaladığını xatırladaraq bunun dövlətimizin başçısının elmimizə diqqət və qayğısının daha bir göstəricisi olduğunu bildirib.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə AMEA-nın elmi müəssisələri 20-yə yaxın dövlət proqramının və digər tapşırıqların icrasında yaxından iştirak edib. Akademiyada dövlətin elm siyasətinin reallaşması üzrə mühüm elmi tədqiqat işləri və layihələr həyata keçirilib.

Elmlə təhsilin vəhdətindən danışan Akif Əlizadə qeyd edib ki, kadr hazırlığı sisteminin müasir standartlara uyğun təkmilləşdirilməsi, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiqi məqsədilə hesabat ilində mühüm tədbirlər görülüb. 2018/2019-cu tədris ili üçün AMEA-nın magistraturasına 19 ixtisas, 48 ixtisaslaşma üzrə 67 nəfər yüksək balla qəbul olunub.

AMEA-nın prezidenti innovativ fəaliyyət sahəsində görülən işlər haqqında da məlumat verib. Hesabat ilində AMEA Yüksək Texnologiyalar Parkında (YTP) innovasiya məhsullarının və yüksək texnologiyaların, həmçinin strateji əhəmiyyətli məhsulların hazırlanması, işlənilməsi, təkmilləşdirilməsi məqsədilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi istiqamətində mühüm nəticələr əldə edildiyini, 2018-ci ildə YTP-nin rezidentlərinin sayının 11-ə çatdığını deyib.

Akademik Akif Əlizadə beynəlxalq elmi əlaqələrdən də danışıb, 2018-ci ildə bir sıra xarici ölkələrin elmi müəssisələri ilə əməkdaşlığa dair imzalanan müqavilələrin əhəmiyyətindən bəhs edib.

Bildirilib ki, ötən il AMEA-nın əsas fəaliyyət istiqamətlərindən olan sosial sahədə də mühüm tədbirlər həyata keçirilib. Əməkdaşların sosial-iqtisadi hüquqlarının qorunması, iş və yaşayış şəraitinin yaxşılaşdırılması, əməkhaqlarının artırılması, onların istirahətinin və sağlamlıqlarının təmin olunması, mənzil təminatının həlli istiqamətində bir sıra işlər görülüb.

Məruzədən sonra AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev AMEA Rəyasət Heyətinin 2018-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinə dair sualları cavablandırıb.

Yığıncaqda akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, akademik Şahin Mustafayev, Ə.Hüseynov adına İdarəetmə Sistemləri İnstitutunda laboratoriya rəhbəri, akademik Asəf Hacıyev və AMEA Rəyasət Heyəti aparatının elm və təhsil baş idarəsinin rəisi, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov çıxış ediblər.

Tədbirdə ümumi yığıncağın qərar layihəsi müzakirə olunub. AMEA-nın Rəyasət Heyətinin 2018-ci ildəki fəaliyyəti qənaətbəxş hesab olunaraq hesabat təsdiq edilib. Qərara əsasən, AMEA-nın Rəyasət Heyətinə Prezident İlham Əliyevin elmin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrasının davam etdirilməsi, dövlətin elmi-texniki siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində AMEA-nın iştirakının daha da gücləndirilməsi tapşırılıb. Həmçinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin və digər dövlət proqramlarının həyata keçirilməsi ilə bağlı müvafiq qurumlarla əməkdaşlığın və elmi tədqiqat işlərinin gücləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin respublikamızda hakimiyyətə gəlməsinin 50 illik yubileyi ilə əlaqədar Onun ölkəmizin siyasi, ictimai və mədəni həyatında oynadığı tarixi rolunun elmi əsaslarla araşdırılmasının davam etdirilməsi və "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" dövlətimizin başçısının Sərəncamının və Nazirlər Kabinetinin müvafiq qərarının icrası istiqamətlərində tapşırıqlar verilib. Qərarda nüvə fizikası, nanotexnologiyalar və nanostrukturlar, informasiya texnologiyaları, tətbiqi riyaziyyat və riyazi modelləşdirmə, süni intellekt sistemləri və mexatronika, astrofizika, kimya texnologiyasının və materialşünaslığın nəzəri problemləri, neft kimyası və üzvi sintez, böyük dərinlik neftləri, geodinamika və seysmologiya, qlobal dəyişikliklər və iqlim, molekulyar biologiya, gen mühəndisliyi, əhalinin sağlamlığı və biotibb üzrə fundamental və tətbiqi tədqiqatlara prioritet elmi istiqamətlər kimi üstünlük verilməsi əksini tapıb. Bundan başqa, Azərbaycan tarixi, ədəbiyyatı, dili, incəsənəti və folklorunun regional və qlobal problemləri, sosial və etnik proseslər, qlobal iqtisadi, siyasi, hüquqi faktorların ölkəmizə potensial təsiri ilə bağlı tədqiqatların davam etdirilməsi tapşırılıb. Həmçinin AMEA-da əldə olunan mühüm elmi nəticələrin nüfuzlu elmi bazalara inteqrasiyasının daha da sürətləndirilməsi, akademiyada nəşr olunan jurnalların bu bazaların tələblərinə uyğunlaşdırılması üçün zəruri tədbirlərin davam etdirilməsi, AMEA-da magistratura təhsilinin daha da inkişafı, AMEA-nın Yüksək Texnologiyalar Parkının yerli və beynəlxalq elmi-texnoloji şirkətlərlə və biznes strukturları ilə əməkdaşlığının genişləndirilməsi və digər istiqamətlərdə tapşırıqlar verilib.

Yığıncaqda AMEA-nın vitse-prezidenti və Kimya Elmləri Bölməsinin akademik-katibi vəzifələrinə seçkilər keçirilib. Gizli səsvermə yolu ilə keçirilən seçkilərdə AMEA-nın həqiqi üzvləri iştirak ediblər. Seçkilərin nəticəsinə görə, akademik Rasim Əliquliyev AMEA-nın vitse-prezidenti, akademik Vaqif Fərzəliyev isə Kimya Elmləri Bölməsinin akademik-katibi vəzifələrinə seçiliblər. AMEA-nın akademik-katibi vəzifəsini AMEA-nın müxbir üzvü Əminağa Sadıqov icra edəcək.

Sonra BMT-nin Baş Assambleyası tərəfindən 2019-cu ilin "Beynəlxalq Kimyəvi Elementlərin Dövri Cədvəli İli" elan olunması ilə əlaqədar D.İ.Mendeleyevin "Kimyəvi Elementlərin Dövrü Qanunu"nun kəşfinin 150 illiyinə həsr olunan elmi sessiya işə başlayıb.

AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev "Kimyəvi elementlərin dövri sistemi təbiətin fundamental qanunlarından biridir" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, kimyəvi elementlərin dövri cədvəli kimyəvi elementləri sistemləşdirməklə bərabər fizika, kimya, biologiya, geokimya, kristalloqrafiya, astrofizika və digər elmlərin də inkişafında mühüm rol oynayır. XX əsrdə dövri cədvəl bir çox dəyişikliklərə məruz qalmasına baxmayaraq, son nəticədə daha təkmil vəziyyətə gətirilib.

Məruzəçi Azərbaycanda qeyri-üzvi funksional materialların, yarımkeçiricilərin və topoloji izolyatorların məqsədli sintezi sahəsində axtarışlarda dövri cədvəlin mühüm rolundan bəhs edib, AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda son illərdə bu istiqamətdə əldə edilmiş elmi nəticələr haqqında məlumat verib.

Elmi sessiyada Milli Nüvə Tədqiqatları Mərkəzinin sədri, akademik Adil Qəribov, Bakı Dövlət Universitetinin kimya fakültəsinin dekanı, professor Əbdülsəid Əzizov və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kimya və qeyri-üzvi maddələrin texnologiyası kafedrasının müdiri, kimya elmləri doktoru Yunis Qəhrəmanov çıxış ediblər.

Daha sonra yekun nitqi söyləyən akademik Akif Əlizadə doktorantura təhsilinin Avropa təhsil sisteminə inteqrasiyasını təmin etmək məqsədilə Avropa İttifaqının "Erasmus+" proqramının "Nizami" layihəsi çərçivəsində müvafiq tədbirlərin davam etdirilməsinin, gənc alimlərin təcrübə keçmək və təhsil almaq məqsədilə dünyanın nüfuzlu elmi mərkəzlərinə və ali təhsil müəssisələrinə göndərilməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Qeyd edilib ki, multidissiplinar tədqiqatların gücləndirilməsi istiqamətində riyaziyyat və informatikanın elmin müxtəlif sahələrinə tətbiqinə xüsusi diqqət ayrılmalı, alimlərimiz dövlət siyasətinin mühüm prioritetlərindən birini təşkil edən qeyri-neft sektorunun inkişafına öz töhfələrini verməlidirlər.

Sonda akademik Akif Əlizadə Azərbaycan alimlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Prezident İlham Əliyev: Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır

## *Ölkəmizdə islahatların dərinləşdirilməsi və şəffaflığın təmin edilməsi nəticəsində əldə olunan əlavə gəlirlər ilk növbədə sosial sahəyə yönəldilir*

*Son 15 ildə iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıran Azərbaycan özünün geniş imkanlarına əsaslanaraq dərinməzmunlu sosial siyasət həyata keçirib. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, ölkəmizdə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq respublikamızda vətəndaşların rifah halının davamlı olaraq yaxşılaşdırılmasına, gəlir imkanlarının artırılmasına, onlara göstərilən xidmətlərin əlçatanlığının təmin olunmasına yönələn müxtəlif tədbirlər həyata keçirilir. Belə məqsədyönlü siyasətin nəticəsidir ki, ölkəmiz, beynəlxalq səviyyəli reytinq agentliklərinin hesabatlarında da göstərildiyi kimi, insan inkişafı indeksini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa nail olub. Vurğulamaq yerinə düşər ki, BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərinə qoşulan Azərbaycan yoxsulluq və işsizlik qısa müddətdə 5 faiz səviyyəsinədək aşağı salınıb.*



Respublikamızda 2019-cu ilin əvvəlindən isə ötən il anonsu verilən böyük sosial paketin icrası aktiv fazaya daxil olub. İlin əvvəlindən bəri dövlət başçısı bilavasitə ölkə vətəndaşlarının həyat səviyyəsinin daha da yüksəldilməsinə, onları narahat edən müxtəlif sosial məsələlərin həllinə yönələn çoxlu sayda Fərman və sərəncamlar imzalayıb. Prezident İlham Əliyev aprelin 30-da keçirilən Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində vurğulayıb ki, görülən bu işlər nəticəsində üç milyon insan imzalanmış fərmanlardan bu və ya digər formada faydalanıb, vətəndaşların maddi vəziyyəti yaxşılaşıb, onları narahat edən problemlər öz həllini tapıb.

### ÖLKƏNİN QAZANDIĞI ƏLAVƏ MALİYYƏ VƏSAİTİ SOSİAL SAHƏNİ DAHA DA GÜCLƏNDİRMƏYƏ GENİŞ İMKANLAR AÇIB

Son 15 ildə Azərbaycan dünyaya nümunəvi inkişaf modeli təqdim edib. Statistik göstəricilərə nəzər saldıqda və müqayisəli təhlillər apardıqda aydın şəkildə görünür ki, beynəlxalq miqyasda Azərbaycan qədər dinamik iqtisadi inkişaf göstəriciləri qazanan ölkələrin sayı çox azdır. Bəhs olunan dövrdə respublikamızda ümumi daxili məhsul istehsalı 3,3 dəfədən çox artıb ki, bu da bütün dünya üzrə rekord göstəricidir. Eyni zamanda, milli iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyi artıb. Davos İqtisadi Forumunun müvafiq hesabatında göstərildiyi kimi, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilik indeksi üzrə dünyada 35-ci, MDB məkanında isə lider mövqedə qərarlaşıb. Yenə Davos Forumunun dəyərləndirmələrinə əsasən, respublikamız inklüziv inkişaf indeksi üzrə inkişaf etməkdə olan ölkələr sırasında 3-cü yeri tutur ki, bu da böyük uğurdur.

> *"Digər önəmli məsələ problemli kreditlərlə bağlı idi. Bu məsələ Azərbaycanda ən yüksək səviyyədə həll olundu"*

Respublikamızda Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji kurs milli iqtisadiyyatın genişlənməsinin ardıcıllığının təmin olunmasına hesablanıb. Dövlət başçısının qətiyyətinin və siyasi iradəsinin nəticəsidir ki, son illərdə ölkəmizdə iqtisadi inkişafın davamlılığını, o cümlədən də qeyri-neft sektorunda yeni istehsal və ixrac imkanları yaradılmasını hədəfləyən islahatlar uğurla reallaşdırılır. Aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, ölkəmiz bir sıra çətinliklərlə müşayiət olunan yeni şəraitdə də iqtisadi inkişafla bağlı diqqətəlayiq uğurlara imza atıb. Belə ki, milli iqtisadiyyatımız qlobal böhranın mənfi təsirlərini dəf edərək inkişafa istiqamətlənib. Hazırda ölkənin qarşısında duran bütün vəzifələrin icrası yüksək səviyyədə təmin olunur. 2019-cu ilin əvvəlindən bəri əldə olunan göstəricilər deyilənləri bir daha təsdiqləyir. Nazirlər Kabinetinin bəhs olunan iclasında da bildirildiyi kimi, bu ilin birinci rübündə respublikamızda ümumi daxili məhsul istehsalında 3 faiz artıma nail olunub. Bu, son illər ərzində qazanılan ən yüksək göstəricidir. O cümlədən sənaye istehsalı 4,4 faiz artıb. Daha yüksək artım isə 15,6 faiz olmaqla qeyri-neft sənayesində müşahidə edilib ki, bu da dünya rekordudur.

İqtisadi müstəqilliyin təmin edilməsi öz növbəsində Azərbaycanı geniş maliyyə imkanlarına malik ölkəyə çevirib. Ölkəmiz bir tərəfdən irimiqyaslı infrastruktur layihələrinə böyük həcmlərdə investisiyalar yönəldir, digər tərəfdən isə özünün strateji valyuta ehtiyatlarını artırır. Hazırda respublikamız 45 milyard dollar həcmində strateji valyuta ehtiyatlarına malikdir və adambaşına düşən strateji valyuta ehtiyatlarına görə bütün dünya üzrə öndə gedən yerlərdən birini tutur.

Ölkəmizin dinamik iqtisadi inkişafının, aparılan islahatların, o cümlədən də şəffaflığın yüksək səviyyədə təmin edilməsinin real nəticəsi olaraq maliyyə imkanlarının genişlənməsi tendensiyası 2019-cu ilin əvvəlindən də davam edib. Belə ki, cari ilin birinci rübündə respublikamızda büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Bu əlavə gəlirlərin təxminən 150 milyon manatı vergi daxilolmalarının, 50 milyon manatdan çox

> *"Bu il maaşlar, pensiyalar artırıldı və bu proses davam etdiriləcək. Mən bildirmişəm, biz bu məsələni daim diqqətdə saxlayırıq"*

hissəsi isə gömrük rüsumlarının sayəsində qazanılıb. Sevindirici hal ondan ibarətdir ki, vergi orqanları qeyri-neft sektorundan daha çox - 136 milyon manat vergilər toplamağa müvəffəq olub. Azərbaycanın sosial siyasət strategiyasına uyğun olaraq əlavə gəlirlər ilk növbədə sosial sahəyə yönəldilir. Ölkəmizi fərqləndirən bu cəhətə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: **"Əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək. Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və prezident seçkilərindən sonra andiçmə mərasimində, əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır. Nəyin hesabına, əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu, bizə imkan verir ki, bu məsələləri həll edək".**

### MÜVAFİQ FƏRMANIN İCRASI NƏTİCƏSİNDƏ 12 MİNDƏN ÇOX ŞƏHİD AİLƏSİ 11 MİN MANAT MƏBLƏĞİNDƏ VƏSAİT ALACAQ

Sosial dövlət olan Azərbaycanda ədalətli resurs bölgüsü həyata keçirilir və qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. O cümlədən respublikamızda şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev 2018-ci il 19 aprel tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq Fərman imzalayıb. Bəhs olunan sənədə əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub.

Bəhs olunan Fərman Azərbaycan Prezidenti İlham Əliyevin humanist siyasətinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğısının bariz nümunəsidir. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti seçkiləri ərəfəsində cənab İlham Əliyev uzun illərdir gündəlikdə duran məsələnin həll olunacağını vəd etmişdi. Bəhs olunan sənəd Prezident İlham Əliyevin seçkilərdən sonra imzaladığı ilk Fərmandır. Bu, Azərbaycan Prezidentinin Öz vədlərinə sadiq qaldığını, hər bir vətəndaşın qayğı və probleminə xüsusi həssaslıqla yanaşdığını, onların tez bir zamanda aradan qaldırılması üçün əməli tədbirlər gördüyünü əyani şəkildə təsdiq edir.

Ölkəmizdə bəhs olunan Fərmanın icrasına ötən il noyabrın 14-dən başlanılıb. Şəhidlərin vərəsələrinə birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq təmin edilməklə həyata keçirilir. Dövlət başçısının 28 yanvar 2019-cu il tarixində imzaladığı digər Fərmanla isə birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsi daha da genişlənib. Belə ki, sənədə əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 1997-ci il avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin (o cümlədən 11000 manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi tapşırılıb. Yeni Fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir və bu məqsədlər üçün ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur. **"Bildiyiniz kimi, prezident seçkilərindən sonra imzaladığım ilk Fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı idi. Çox ciddi Fərman idi və onun icra edilməsi nəticəsində 12 mindən çox şəhid ailəsi dövlət tərəfindən 11 min manat məbləğində vəsait alacaq. Artıq vəsaitin verilməsi prosesi başlamışdır"**, - deyə Prezident İlham Əliyev bildirib.

Bu məqamda vurğulamaq yerinə düşər ki, respublikamızda şəhid ailələrinin və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da davamlı olaraq diqqət mərkəzində saxlanılır. İndiyədək dövlət vəsaiti hesabına tikilən və yaxud satın alınan minlərlə ev şəhid ailələrinin və müharibə əlillərinin istifadəsinə verilib. Prezident İlham Əliyev bildirib ki, proses bundan sonra da davam etdiriləcək: **"Bu il şəhid ailələrinə dövlət tərəfindən ən azı 800 mənzil veriləcək. Bütövlükdə, 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin olunub. Qarabağ müharibəsi əlillərinə bu il ən azı 600 minik avtomobili veriləcəkdir. Bu günə qədər 6200 avtomobil verilibdir. Onu da bildirməliyəm ki, bu həcmdə bu təcrübə ancaq Azərbaycanda mövcuddur. Biz bu işləri ardıcıl şəkildə görürük və görməliyik. Ona görə bizim bu sahədəki siyasət bir daha onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz ağır, çətin vəziyyətdə yaşayan insanlara mütləq kömək etməliyik və edirik".**

> *"Bu il şəhid ailələrinə dövlət tərəfindən ən azı 800 mənzil veriləcək. Bütövlükdə, 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin olunub"*

### PROBLEMLİ KREDİTLƏRLƏ BAĞLI VƏTƏNDAŞLARA KOMPENSASİYALARIN ÖDƏNİLMƏSİ ƏN QISA VAXTDA BAŞA ÇATDIRILACAQ

Azərbaycanda manatın devalvasiyasından sonra cəmiyyətdə müzakirə olunan məsələlərdən biri də əhalinin xarici valyutada kreditləri ilə bağlı olmuşdur. Problemin optimal həlli yollarını tapmaq, bu məsələni əhali və dövlət büdcəsi üçün ən əlverişli variantda aradan qaldırmaq məqsədilə 2018-ci ildən icitmai müzakirələr təşkil olunub, Azərbaycan Prezidentinin tapşırığına əsasən hökumət bu istiqamətdə fəal iş aparıb və təkliflər hazırlayıb. Paralel olaraq məsələnin Milli Məclisdə müzakirəsi təşkil edilib, müxtəlif təkliflər irəli sürülüb.

Artıq problemli kreditlərlə bağlı məsələnin vətəndaşların mənafeyi nəzərə alınmaqla həll olunduğunu söyləmək mümkündür. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev cari il fevralın 28-də "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanla nəzərdə tutulan güzəştlərdən sənəddə göstərilən dövrlərdə xarici valyutada kredit götürmüş fiziki şəxslər faydalanacaqlar. Fərmana əsasən, sənəddə qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 000 (on min) ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi müvafiq qaydada qiymətləndirilməklə dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Sənəddə də vurğulandığı kimi, ödəmələr üç aydan gec olmayaraq həyata keçiriləcək və artıq prosesə başlanılıb.

Bu məqamda vurğulamaq yerinə düşər ki, Azərbaycanda məlum devalvasiyalardan sonra kreditlərlə bağlı problemin yaranmasının şərtləndirən amillər ölkəyə xarici mənfi təsirlər nəticəsində formalaşıb. Azərbaycan isə bir sıra vaxtlarda qlobal məkanda bir sıra arzuolunmaz proseslərin getdiyinin şahidi olub.

Azərbaycanın xoşbəxtliyi ondadır ki, ölkəmiz Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində qəbul edilən qərarlar, aparılan islahatlar və iqtisadiyyata güclü siyasi, maddi dəstək tədbirləri sayəsində qlobal mənfi şokların təsirini qısa müddətdə və daha az itkilərlə önləməyə nail olub. Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaradıb. Azərbaycan hakimiyyəti yaranan imkanlardan məhz vətəndaşların mənafeyi naminə istifadə etməyə qərar verib. Prezident İlham Əliyev imzaladığı Fərmanla problemli kreditlər məsələsinə son

> *"Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır"*

qoydu. Çox haqlı olaraq bu qərar Prezidentdən devalvasiyadan əziyyət çəkən insanlara misilsiz dəstək kimi dəyərləndirilir. Azərbaycanın dövlət başçısı problemli kreditlər məsələsini həll etməklə xalqa xidmətin ən yüksək nümunəsini göstərdi.

Fərmanın sosial əhəmiyyəti kifayət qədər yüksəkdir. Dövlət başçısının imzaladığı sənədlə problemli kreditlər üzrə məhkəmə çəkişmələrinə son qoyulub. Fərmana əsasən, devalvasiya nəticəsində insanlara dəyən ziyanı dövlət ödəyəcək. Fərmanın əhatə dairəsinə 800 mindən çox insan düşür. Bunun üçün dövlət tərəfindən 700 milyon manatdan çox vəsait ödəniləcək. Bütövlükdə, problemli kreditlərin həlli Azərbaycan hakimiyyətinin ciddi sosial təşəbbüsüdür və vətəndaşların rifah halını daha da yüksəltmək, onların maliyyə yükünü azaltmaq, dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq məqsədi daşıyır. Prezident İlham Əliyev ölkəmizdə problemli kreditlər məsələsinin həllindən məmnunluğunu bildirib. Yaranan borc öhdəliklərinə görə vətəndaşlara kompensasiyaların ödənilməsinin qısa müddətdə başa çatacağına əminliyini bildirən dövlət başçısı deyib: **"Digər önəmli məsələ problemli kreditlərlə bağlı idi. Bu məsələ Azərbaycanda ən yüksək səviyyədə həll olundu".**

Bu məqamda qeyd etmək yerinə düşər ki, problemli kreditlər yalnız Azərbaycana aid olan məsələ deyil. Dünyanın ayrı-ayrı ölkələrində insanlar vaxtaşırı bu kimi problemlərlə üzləşirlər. İndiyədək problemli kreditlərlə bağlı məsələnin həllinə yönələn addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilib, ancaq həmin qərarların icrasına nail olunmayıb. Azərbaycan isə problemli kreditlər məsələsinin həllində yenə də liderlik keyfiyyəti ortaya qoydu. Prezident İlham Əliyev ölkəmizdə dövlətin potensialından xalqın mənafeyi üçün istifadə olunduğunu bir daha nümayiş etdirdi.

### ƏMƏKHAQLARININ, PENSİYALARIN GƏLƏCƏKDƏ DƏ ARTIRILMASI NƏZƏRDƏ TUTULUB

Ölkəmizdə əməkhaqlarının davamlı olaraq artırılması kimi gözəl ənənənin formalaşması əhalinin maddi təminatının möhkəmlənməsində mühüm rol oynayır. Bu tendensiya 2019-cu ilin əvvəlindən aktiv şəkildə icrasına başlanılan böyük sosial paket çərçivəsində də davam etdirilir. Prezident İlham Əliyev 8 fevral 2019-cu il tarixində "Minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" müvafiq Sərəncam imzalayıb. Bəhs olunan Sərəncama əsasən, ölkəmizdə minimum əməkhaqqının yaşayış minimumuna (180 manat) çatdırılması təmin edilib. Minimum əməkhaqqının mart ayının 1-dən etibarən 180 manata çatdırılması dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artıma gətirib çıxardacaq.

Ölkəmizdə pensiyalar da mütəmadi qaydada artırılır. Ötən il əmək pensiyalarının orta aylıq məbləğində 6,8 faiz, o cümlədən yaşa görə əmək pensiyalarının məbləğində 7,3 faiz artım qeydə alınıb. Prezident İlham Əliyev 7 fevral 2019-cu il tarixində "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Dövlət başçısı tərəfindən əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair irəli sürülən yeni təşəbbüs də əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Respublikamızda minimum pensiyaların məbləği təxminən 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Vurğulamaq yerinə düşər ki, bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdə qərarlaşıb. Prezident İlham Əliyev bildirib ki, minimum əməkhaqqının, minimum pensiyanın və digər sosial müavinətlərin bundan sonra da artırılması nəzərdə tutulur. **"Qeyd etdiyim kimi, bu il maaşlar, pensiyalar artırıldı və bu proses davam etdiriləcək. Mən bildirmişəm, biz bu məsələni daim diqqətdə saxlayırıq. Qeyd etdim ki, son 15 il ərzində maaşlar və pensiyalar dəfələrlə artıb. Ancaq bu, bizi tam qane edə bilməz. Ona görə bundan sonra da minimum əməkhaqqı, minimum pensiya və digər sosial müavinətlərin artırılması nəzərdə tutulur. İmkan daxilində biz bunu edəcəyik. Bu sahədə öz siyasətimizi ardıcıl şəkildə aparacağıq"**, - deyə dövlət başçısı vurğulayıb.

Məlumat üçün bildirək ki, ölkədə 1,3 milyon pensiyaçı var. Onlardan 58,3 faizi yaşa görə, 30,1 faizi əlilliyə görə, 11,6 faizi ailə başçısını itirməyə görə pensiya alır.

**Mübariz ABDULLAYEV**

# Uğurlu islahatların alternativi yoxdur



Geridə qoyduğumuz il, o cümlədən cari ilin ilk rübü sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu il 30 aprel tarixində cari ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında son iqtisadi göstəriciləri məhz belə dəyərləndirmişdir. Dövlətimizin başçısı qeyd etmişdir: **"Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır".**

İqtisadi və sosial sahədə aparılan siyasət və həyata keçirilən uğurlu islahatlar özünü rəqəmlərdə də büruzə verir. Belə ki, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz, sənaye istehsalı isə 4,4 faiz artmışdır. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 3,6 faiz yüksəlmişdir. Əhalinin gəlirləri 5,5 faiz artmış, inflyasiya isə olduqca aşağı - 2,1 faiz səviyyəsində qalmışdır. Azərbaycan iqtisadiyyatına ötən rüb ərzində ümumilikdə 2,8 milyard dollar sərmaye qoyulmuşdur ki, onun da 2 milyardı məhz qeyri-neft sektoruna yönəlmişdir. Digər müsbət məqam ondan ibarətdir ki, birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə, yəni təxminən 200 milyon manatdan çox artmışdır. Bütün bu amillər, heç şübhəsiz, vətəndaşların rifah halının yüksəlməsinə şərait yaratmış, minimum əməkhaqqı və pensiyalar təxminən 40 faiz, məcburi köçkünlərə verilən müavinətlər 50 faiz, sosial müavinətlər isə orta hesabla iki dəfədən çox artmışdır.

Belə ki, əldə olunan uğurları, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş Dövlət proqramlarının reallaşdırılması təmin etmişdir. Təsadüfi deyil ki, iqtisadiyyatın və sosial həyatın ən müxtəlif sahələrinin inkişafını nəzərdə tutan Strateji Yol Xəritələrinin icrası son iki il ərzində 52 faiz təşkil edir. Bu isə o deməkdir ki, gələn ilin sonunadək bu önəmli proqram tam olaraq həyata keçiriləcəkdir. Ən əsası odur ki, bu müddət ərzində Azərbaycan vətəndaşları ölkəmizin iqtisadi gücü və qüdrətinin getdikcə artmasının şahidi olmaqda və iqtisadi sahədə müşahidə edilən mütərəqqi dəyişiklikləri özünün həyat səviyyəsində, rifahında hiss etməkdədirlər.

Hazırda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, valyuta ehtiyatlarımızın həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, mühüm nəqliyyat-enerji layihələrinin reallaşdırılması ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm əsaslar yaradır. Strateji əhəmiyyətə malik bu cür genişmiqyaslı işlər milli və iqtisadi maraqlarımızın qorunması, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edilməsi, iqtisadiyyat və siyasətin bir-biri ilə uğurlu bir şəkildə uzlaşdırılması ilə tamamlanır.

Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Belə ki, dövlət başçısı tərəfindən imzalanmış ölkəmizdə sənayeləşmənin sürətləndirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın təşkili, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi məqsədi güdən Dövlət Proqramı uğurla icra edilmişdir. Sənaye parkları və məhəlləri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayedə struktur dəyişikliyi baxımından yeni yanaşmadır. Odur ki, son dövrlərdə ölkədə bu cür təsisatların yaradılması istiqamətində xeyli iş görülmüşdür.

Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə edən sənaye sahələrinin yaradılmasında, istehsal prosesinin təşkili zamanı infrastruktur xərclərinin azaldılmasında, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsində, məşğulluğun təmin edilməsində sənaye parkları və sənaye məhəlləri mühüm əhəmiyyət kəsb edir. İnkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna irihəcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması və s. işlər davam etdirilmişdir.

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bu, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi və institusional islahatlara beynəlxalq təşkilatların verdiyi yüksək qiymətdir. Təsadüfi deyil ki, indi ölkəmizdə iqtisadi şəffaflığın, səmərəliliyin və struktur islahatlarının yeni mərhələsi başlanır. Bu mərhələdə əsas vəzifə effektiv və dinamik iqtisadiyyatın qurulmasından, daha sağlam iqtisadi bazaya əsaslanan təsirli sosial siyasətin həyata keçirilməsindən ibarətdir.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Eyni zamanda, regionlarımız inkişaf etdirilir və bu da əyalətlərdə iqtisadi fəallığın yüksəlməsi ilə müşayiət olunur. Dövlət investisiyaları vasitəsilə infrastruktur obyektlərimiz modernləşdirilir. Xidmət, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm, emal sektoru qeyri-neft sektorunun potensial sahələri kimi inkişaf etməkdədir. Kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsi siyasəti davamlı xarakter daşıyır.

Yeniləşmənin bütün istiqamətlər üzrə uğurla reallaşdırılması ölkənin inkişafı ilə bağlı konkret hədəflərin müəyyən edilməsindən bilavasitə asılıdır. Azərbaycan özünün perspektiv inkişaf xəttini artıq müəyyən edib. Bu, qəbul edilmiş Dövlət proqramlarında, strateji yol xəritələrində bir daha öz əksini tapır. Həmin sənədlər ölkəmizdə proqramlı idarəetməni səciyyələndirməklə yanaşı, həm də Prezident İlham Əliyevin siyasi, sosial-iqtisadi və institusional inkişafla bağlı hədəflərini özündə ehtiva edir. Dövlət başçımız xüsusi olaraq vurğulayır: **"Görülmüş işlər deməyə əsas verir ki, biz düzgün yoldayıq. Buna heç bir şübhəmiz yoxdur. İqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq. Bildiyiniz kimi, bu yaxınlarda məhkəmə-hüquq sahəsində islahatlarla bağlı müvafiq Fərman imzalanmışdır. Hesab edirəm ki, onun icrası bu sahədə də ciddi dönüşə səbəb olacaq. Yəni biz gərək hər bir sahədə irəli gedək. Yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma Azərbaycanda tətbiq edilməlidir. Nəzərə almalıyıq ki, bizim neft-qaz sektorumuz da iqtisadiyyata böyük dəstəkdir. Nəzərə almalıyıq ki, biz indi nəqliyyat mərkəzlərindən birinə çevrilirik. Bu yaxınlarda Çində keçirilmiş "Bir kəmər, bir yol" Forumunda Azərbaycanın iştirakı bir daha onu göstərir ki, ölkəmiz bu önəmli layihənin tərkib hissəsidir. Bizim gəlirlərimiz artacaq, maliyyə və iqtisadi imkanlarımız daha da böyüyəcək. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, 2019-cu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olacaq".**

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu yaxın perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

**Siyavuş Novruzov**

**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini**

# Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində III akademik forum keçirilir



Mayın 1-də Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması" mövzusunda III akademik forum keçirilir.

AZƏRTAC xəbər verir ki, UNESCO-nun mədəniyyətlərarası dialoq şöbəsinin müdiri Ann-Belinda Preisin moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva mədəniyyətlərarası dialoq sahəsində müzakirələrin xüsusi əhəmiyyəti olduğunu qeyd edib. Bildirib ki, bu sahədə bütün dünyada elmi araşdırmaların artması təqdirəlayiqdir. Mədəniyyətlərarası dialoqun elmi cəhətdən araşdırılması olduqca əhəmiyyətlidir.

Sevda Məmmədəliyeva Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüskarı olduğu "Bakı Prosesi" barədə ətraflı məlumat verib. Bildirilib ki, "Bakı Prosesi" çərçivəsində Azərbaycanda bir çox mühüm beynəlxalq tədbirlər keçirilib. Bu tədbirlərdə dünyanın ictimai, siyasi, din xadimləri, alimlər iştirak ediblər.

Azərbaycanda dövlət-din münasibətlərinə toxunan nazir müavini qeyd edib ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dindarlar xüsusi qayğı ilə əhatə ediliblər.

Mədəniyyətlərarası anlaşma üçün dinlərarası dialoqda UNIWIN şəbəkəsinin əlaqələndiricisi Fəthi Mənsuri Yeni Zelandiyada, Şri-Lankada törədilən terror aktları barədə danışıb. Bildirib ki, bu hadisələr əksər hallarda dini savadsızlıq səbəbindən baş verir. O, həmçinin dinlərarası dialoqun olmamasının bu kimi xoşagəlməz halların baş verməsində rolunu qeyd edib.

Dünyada dinlərarası dialoqun qurulması istiqamətində görülən işlərdən danışan BMT-nin din və inkişaf üzrə qurumlararası işçi qrupunun əlaqələndiricisi Azza Kərəm bu sahədə müəyyən uğurlara nail olunmasına baxmayaraq, hələ də çox sayda problemlərin qaldığını deyib. Əlavə edib ki, son zamanlar dünyada yaşanan faciəvi hadisələr dinlərarası dialoq sahəsində hələ xeyli işlər görülməli olduğunu bir daha təsdiq edir.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edir.

# İdris Cəzairi: Azərbaycan mədəniyyətlərarası və dinlərarası əlaqələr prosesində hərəkətverici qüvvəyə çevrilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mayın 1-də İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi ilə görüşüb.

Komitədən AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədri qonağa Azərbaycandakı dinlərarası harmoniya və qarşılıqlı anlaşma şəraiti, həmçinin dövlətimizin mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsi sahəsində həyata keçirdiyi siyasət haqqında məlumat verib.

Bildirib ki, ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir - birinin dini inancına və mənəvi dəyərlərinə dərin hörmət dayanır. Dövlətin konfessiyalara münasibətində də bərabərlik prinsipi mütləq mənada qorunur. Bu prinsipi ölkəmizdə qeydiyyatdan keçməklə fəaliyyət göstərən dini icmaların fəaliyyətinin dəstəklənməsi, onların ictimai həyatın bir parçası kimi cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlərin görülməsində aydın şəkildə müşahidə etmək olar. Azərbaycanda 925 dini icmanın qeydiyyatdan keçdiyini qeyd edən Komitə sədri onlardan 33-nün qeyri-İslam təmayüllü olduğunu söyləyib.

Mübariz Qurbanlı diqqətə çatdırıb ki, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Respublikamıza səfər etməsindən məmnunluğunu ifadə edən İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi irqçi təmayüllərin, ksenofobiya və islamofobiyanın gücləndiyi bir dövrdə Azərbaycanın sərgilədiyi tolerantlıq modelini təqdir etdiyini qeyd edib. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizə səfər etdiyini bildirən qonaq mədəniyyətlərarası və dinlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanın bu prosesin hərəkətverici qüvvəsinə çevrildiyini deyib.

Qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsinin aparıldığı görüşün sonunda nümayəndə heyətinin üzvlərinə Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

# ABŞ nümayəndə heyətinə Azərbaycanın multikultural dəyərləri barədə məlumat verilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı mayın 1-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizdə səfərdə olan ABŞ nümayəndə heyətinin üzvləri ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Komitənin mətbuat xidmətindən məlumat verilib.

Komitə sədri Mübariz Qurbanlı Azərbaycanın multikultural dəyərlərindən və çoxəsrlik tolerantlıq ənənələrindən, nümunəvi dövlət-din münasibətlərindən, DQİDK-nın fəaliyyətindən söz açıb. Bildirib ki, ölkəmizdə tarixboyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzdə də yüksək şəkildə davam edir. O, bu sahədə cəmiyyətdə formalaşmış dözümlülük, tolerantlıq və multikultural ənənələrlə yanaşı, düşünülmüş dövlət siyasətinin də çox böyük rol oynadığını qeyd edib. Vurğulayıb ki, Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı, öz milli-mənəvi dəyərlərinə söykənən dövlətdir. Dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Dövlət müxtəlif konfessiyalara bərabər münasibət bəsləyir, azsaylı xalqların müxtəlifliklərinin qorunması istiqamətində öz qayğısını əsirgəmir və ən əsası, heç birini digərindən fərqləndirmir. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, burada xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq şəraitində birgə yaşayırlar. Azərbaycanda 14 kilsə, 7 sinaqoqun olduğunu diqqətə çatdıran Mübariz Qurbanlı bu dini ibadətgahların çoxunun dövlət vəsaiti hesabına inşa və bərpa edildiyini deyib.

Dünyada tolerantlığı, dinlərarası dialoqu dəstəkləyən və bu prosesdə fəal iştirak edən Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini diqqətə çatdıran Komitə sədri mayın 2-si və 3-də Bakıda keçiriləcək V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun fərqli etnik, mədəni, dini mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında səmimiyyət və qarşılıqlı hörmətə əsaslanan fikir mübadiləsi üçün nümunəvi platforma olduğunu qeyd edib.

Söhbət zamanı Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti barədə danışan Mübariz Qurbanlı qonaqların dini radikalizmlə mübarizə, tolerantlıq mühitinin qorunması istiqamətindəki suallarını cavablandırıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Amerika filialının rəhbəri Janna Skot səmimi görüşə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyətlərə, dinlərə, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyətin multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə aktuallaşdırdığını diqqətə çatdırıb.

Qeyd edək ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəvəti ilə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə ölkəmizə səfər edən nümayəndə heyətinin tərkibinə ABŞ-da fəaliyyət göstərən müxtəlif qurumların nümayəndələri, din xadimləri və nüfuzlu jurnalistlər daxildir.

# Xalça Muzeyində Ulu Öndər Heydər Əliyevin xatirəsi yad edilib



Mayın 1-də Azərbaycan Xalça Muzeyində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Xalça Muzeyinin direktoru, ICOM-un (Beynəlxalq Muzeylər Şurası) Azərbaycan Milli Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova dahi lider Heydər Əliyevin bütün ömrünü Azərbaycan xalqına həsr etdiyini diqqətə çatdırıb. Ölkəmizdə xalçaçılıq sənətinin dirçəlməsi, Azərbaycan mədəniyyətinin intibahı məhz Onun diqqət və qayğısı sayəsində mümkün olub. Ş.Məlikova deyib ki, Ulu Öndər Heydər Əliyevin xatirəsi əbədi yaşayacaq.

Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev Ulu Öndər Heydər Əliyevin şərəfli həyat yolundan bəhs edib. O qeyd edib ki, xalqımızın Ümummilli Liderinin müdrik siyasəti sayəsində Azərbaycan dünyanın inkişaf etmiş və qüdrətli dövlətlərindən birinə çevrilib.

Sonra üzərində Ulu Öndər Heydər Əliyevin rəsmi olan xalçanın təqdimatı olub. Portretin müəllifi Xalq rəssamı Kamil Əliyevdir.

Tədbir konsert proqramı ilə davam edib.

# Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu səmərəli müzakirələrin aparılması üçün çox gözəl platformadır



Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Bakıda "Dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması" mövzusunda akademik forumda iştirak edirik. Burada mədəniyyətlər və sivilizasiyalar arasında dialoq məsələlərinin səmərəli müzakirəsi üçün çox yaxşı imkanlar var.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan UNESCO-nun mədəniyyətlərarası dialoq şöbəsinin müdiri Ann-Belinda Preis deyib.

Ann-Belinda Preis bildirib ki, dünyada şiddətə, zorakılığa qarşı mübarizə aparmaq istəyən, sülh, qarşılıqlı anlaşma uğrunda çalışan insanların sayı durmadan artır. Bakıda təşkil edilən Forumun iştirakçılarının sayı da bunu deməyə əsas verir. Azərbaycan hökuməti tərəfindən builki Foruma dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir. Bu Forum dünyanı narahat edən çağırışların həlli yollarını tapmaqla bağlı səmərəli müzakirələrin aparılması baxımından çox əhəmiyyətlidir.

# Azərbaycan Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının İllik Toplantısında təmsil olunur



Mayın 1-də Fici Respublikasının paytaxtı Suvada Asiya İnkişaf Bankının (AİB) Rəhbərlər Şurasının 52-ci İllik Toplantısı öz işinə başlayıb.

Maliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, toplantıda Azərbaycanı maliyyə naziri, bankın Rəhbərlər Şurasının üzvü Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

Mayın 5-dək davam edəcək İllik Toplantıda üzv ölkələrdən nazirlər, mərkəzi bank rəhbərləri, yüksək vəzifəli dövlət və hökumət rəsmiləri, iş adamları, beynəlxalq maliyyə institutları və vətəndaş cəmiyyəti nümayəndələri, tanınmış alim və ekspertlər Asiya və Sakit okean bölgəsinin gələcək inkişafını təmin edəcək iqtisadi, maliyyə, sosial proqramları müzakirə edəcəklər.

İllik Toplantı çərçivəsində maliyyə naziri Samir Şərifovun bir sıra ikitərəfli görüşlərinin keçirilməsi də nəzərdə tutulub.

Qeyd edək ki, 1966-cı ildə yaradılan AİB-in baş qərargahı Filippinin paytaxtı Manilada yerləşir. Bankın 67 ölkə-üzvü var. Azərbaycan AİB-ə 1999-cu il dekabrın 22-də üzv qəbul olunub. Azərbaycan Respublikası bankın Rəhbərlər Şurasının 2015-ci ildə keçirilən 48-ci illik toplantısına ev sahibliyi edib.

# Ramin Quluzadə: Azərbaycan Avrasiya məkanında Çinin əsas tərəfdaşlarından biridir

*"Bir kəmər, bir yol" layihəsi ölkələrarası əlaqələri gücləndirir, əməkdaşlığın genişləndirilməsinə xidmət edir*

Pekində "Bir kəmər, bir yol" əməkdaşlığı, ümumi parlaq gələcəyin qurulması" mövzusunda keçirilən, 37 dövlət və hökumət başçısının, beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, yalnız nəqliyyat bağlılığını təmin etmir. O, ölkələrarası əlaqələri gücləndirir, əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib.

Nazir deyib ki, bu gün Azərbaycan Avrasiya məkanında Çinin əsas tərəfdaşlarından biridir. Çünki Azərbaycan Cənubi Qafqaz regionunda nəqliyyat və geosiyasi üstünlüyə malikdir. Hazırda iki ölkə arasında tranzit yükdaşımaları sahəsində əməkdaşlığın cari vəziyyəti qənaətbəxşdir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Ələt qəsəbəsində yerləşən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarının gələcəkdə artırılması nəticəsində Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində ölkəmizin ərazisindən keçən Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu (Orta Dəhliz) vasitəsilə tranzit yükdaşımalarının həcminin daha da artırılması mümkün olacaq.

Ramin Quluzadə bildirib ki, Çin Xalq Respublikasının sədri Si Cinpinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində



Trans-Xəzər nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd etməsi Çinin Azərbaycanla tranzit yükdaşımaları sahəsində maraqlı olduğunu göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının sədri ilə görüşdə hər iki ölkənin rəhbərləri tərəfindən infrastruktur, logistika və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığın perspektivlərinə toxunulması gələcəkdə uğurlu layihələrin həyata keçirilməsinə zəmin yaradır. Azərbaycan hökuməti prioritet sahələrdən hesab olunan informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsində xarici tərəfdaşlarla əlaqələrə yüksək əhəmiyyət verir. Bununla əlaqədar olaraq, "ZTE" Korporasiyasının sədri Li Cisue ilə keçirilmiş görüş sözügedən sahənin inkişaf etdirilməsi baxımından olduqca əhəmiyyətlidir. 2007-ci ildən Azərbaycan bazarında fəaliyyət göstərməyə başlayan "ZTE" Korporasiyası "Bakı Telefon Rabitəsi" MMC-nin və "Aztelekom" MMC-nin şəbəkələrində texniki yenidənqurma və müasir telekommunikasiya texnologiyalarının tətbiqi sahəsində əməkdaşlıq edir.

Nazir vurğulayıb ki, informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan "Huawei" simsiz rabitə, yeni nəsil şəbəkə məhsulları təklif etməklə yanaşı, proqram təminatı və tətbiqi xidmətlərini göstərir, terminalların quraşdırılmasını həyata keçirir. Ölkəmizdə 15 ildən çoxdur ki, uğurla fəaliyyət göstərən "Huawei" şirkəti üçün hər cür şərait yaradılıb. Məlum olduğu kimi, "Huawei" şirkəti ölkəmizdə sosial layihələrin həyata keçirilməsində və kadr potensialının artırılmasında da fəal iştirak edir. Belə ki, "Gələcək üçün toxumlar" layihəsi çərçivəsində Çində informasiya texnologiyaları sahəsində təlimlərdə indiyədək 500-dən çox azərbaycanlı mühəndis iştirak edib. Eyni zamanda, "Huawei" şirkəti tərəfindən 2016-cı ildən başlayaraq Azərbaycanı dünyaya tanıtmaq məqsədi daşıyan "Gözəl Azərbaycan" sosial layihəsinə start verilib. Sözügedən şirkətlə İKT infrastrukturu, ağıllı kənd təsərrüfatı, ağıllı şəhər və ağıllı ev, rəqəmli iqtisadiyyat, rəqəmsal təhsil və digər sahələrdə gələcək əməkdaşlıqda maraqlıyıq.

# Forumda 105-dən çox ölkə və 35-dən çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edəcək

Mayın 2-3-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək. Forumda 105-dən çox ölkə və 35-dən çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmilərinin iştirakı ilə 21-dən çox tədbir təşkil olunacaq. Tədbir BMT tərəfindən təşkilatın rəsmi internet səhifəsi üzərindən canlı yayımlanacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri mayın 1-də Bakı Konqres Mərkəzində Forumla bağlı təşkil olunan mətbuat konfransında Mədəniyyət Nazirliyinin aparat rəhbərinin müavini Vasif Eyvazzadə deyib.

Bildirib ki, tədbirin təşkilatçıları Azərbaycan hökuməti, Mədəniyyət Nazirliyi, tərəfdaşları isə UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-dur.

Diqqətə çatdırıb ki, 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış və hörmət çərçivəsində səmimiyyət və qarşılıqlı hörmətə əsaslanan fikir mübadiləsi üçün pozitiv platforma yarada bilib.

**"Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki foruma Latın Amerikası ölkələrindən tutmuş Böyük Britaniyaya, Səudiyyə Ərəbistanına qədər müxtəlif dövlətlərin təmsilçiləri qatılacaq. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insan həmrəyliyini yaratmaq və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə yerli insanlara kömək etmək üçün (praktiki strategiya kimi) mədəniyyətlərarası dialoqun mühüm rolu öyrəniləcək",** - deyə Vasif Eyvazzadə vurğulayıb.

Bildirilib ki, forum üç istiqamətdə davam edəcək. Belə ki, forum çərçivəsində mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən




təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə digər maraqlı tərəflərlə yanaşı, həm də siyasi, iqtisadi, maliyyə, hərbi, humanitar və sosial təşkilatlar arasında tərəfdaşlığın formalaşdırılması üçün beynəlxalq təşkilatların və nazirlərin 2-ci yüksək səviyyəli görüşü keçiriləcək. Eyni zamanda, 2 gün ərzində "Akademik Forum: dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması", "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq", "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması", "Sülh naminə çoxtərəflilik və diplomatiya", "Türkdilli ölkələr arasında dialoqun qurulmasında Böyük İpək Yolunun rolu" və digər mövzularda plenar və aralıq sessiyalar keçiriləcək. Həmçinin tədbir günlərində qonaqlar üçün sərgilər açılacaq, musiqili proqramlar təşkil ediləcək.

Mətbuat konfransında çıxış edən Koventri Universitetinin Sülh, Etimad və Sosial Münasibətlər Mərkəzinin icraçı direktoru Mayk Hardi, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin Qlobal Təhsil Proqramının meneceri Migel Silva, UNESCO-nun Mədəniyyətlərarası dialoq bölməsinin rəhbəri Ann-Belinda Preys və ISESCO-nun xoşməramlı səfiri, İtaliya İslam Dini Cəmiyyətinin prezidenti Yahya Pallavicini "Bakı prosesi"nin əhəmiyyətini yüksək qiymətləndirərək Azərbaycan hökumətinə belə bir forumun təşkilinə görə minnətdarlıqlarını bildiriblər. Diqqətə çatdırılıb ki, iki gün ərzində Bakıda müasir dünyanı narahat edən aktual məsələlər müzakirə mövzusu olacaq. Forumda "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq", "Sülh naminə gənclər: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması" və "Miqrasiya, yerdəyişmə və insan təhlükəsizliyi" mövzularında üç əsas plenar sessiya keçiriləcək. Vurğulanıb ki, dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu forum böyük əhəmiyyət kəsb edir.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Forumda Qana Respublikasının xarici işlər naziri Şirli Botçvey, Uruqvayın xarici işlər naziri Rodolfo Nin Novoa, Qambiyanın xarici işlər naziri Mamadou Tanqara, Monteneqronun mədəniyyət naziri Aleksandar Boqdanoviç, Mali Respublikasının mədəniyyət naziri Ramatulaye Diallo, Əlcəzairin mədəniyyət naziri Meriem Merdaci, İran İslam Respublikasının mədəniyyət və islam əlaqələri üzrə naziri Abuzər İbrahimi Torkaman, Qırğızıstanın mədəniyyət, informasiya və turizm naziri Azamat Zhamankulov, Küveyt Dövlətinin informasiya və gənclərlə iş naziri Mohammad Naser Abdullahı Aljabri, Monteneqronun daxili işlər naziri Mevludin Nuhociç və Myanmanın təhsil naziri Myo Thein Gyi iştirak edəcək.

# Ötən il Azərbaycan ilə Meksika arasında ticarət dövriyyəsi 35 faiz artıb



Keçən il Azərbaycan və Meksika arasında ticarət dövriyyəsi 35 faiz artıb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın prezidenti, Meksika Deputatlar Palatasının üzvü Qabriela Kuevas Barron ilə görüşdə deyib.

Nazir Azərbaycan-Meksika əlaqələrinin qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını qeyd edib. Bildirib ki, 2008-ci ildə Azərbaycanın Meksikada, 2014-cü ildə isə Meksikanın ölkəmizdə səfirlikləri açılıb. Hər iki ölkənin parlamentlərində qarşılıqlı əməkdaşlıq üzrə parlamentlərarası işçi qrupları fəaliyyət göstərir. 2012-ci ildə Meksika Senatının qərarı ilə Meksika Xocalı soyqırımını tanıyıb, Mexiko şəhərində Tlakskoake-Xocalı Meydanında Xocalı soyqırımına abidə ucaldılıb.

Görüşdə Azərbaycan iqtisadiyyatı barədə məlumat verən nazir Azərbaycandakı siyasi-iqtisadi sabitliyi, həyata keçirilən islahatları vurğulayaraq, beynəlxalq qurumların hesabatlarında ölkəmizin mövqeyinin davamlı olaraq yaxşılaşdığını, "Doing Business 2019" hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycanın davamlı və dayanıqlı inkişafı ölkəmizi beynəlxalq tədbirlərin keçirildiyi məkana çevirib. Azərbaycan və Meksika arasında 2018-ci ildə ticarət dövriyyəsi 35 faiz artıb.

Ölkələrimiz arasında əlaqələrin inkişafı imkanlarından danışan Ş.Mustafayev Azərbaycan və Meksika arasında sənaye, ticarət, kənd təsərrüfatı, investisiya, turizm, humanitar və sair sahələrdə əməkdaşlığın inkişafı üçün potensialı diqqətə çatdırıb. Meksika şirkətləri, həmçinin Azərbaycanda sənaye parkları və məhəllələrində, aqroparklarda sahibkarlar üçün yaradılmış əlverişli şəraitdən istifadə edə bilərlər.

İqtisadiyyat naziri Azərbaycan və Meksika iş adamları arasında, xüsusilə kiçik və orta sahibkarlıq sahəsində əlaqələrin genişlənməsi, yeni əməkdaşlığın qurulması baxımından sərgilərin, biznes forumların, yarmarkaların keçirilməsinin önəmini qeyd edib.

Parlamentlərarası İttifaqın prezidenti, Meksika Deputatlar Palatasının üzvü Qabriela Kuevas Barron mövcud potensialdan istifadənin, iş adamları arasında əlaqələrin genişləndirilməsinin ölkələrimiz arasında iqtisadi-ticarət əməkdaşlığının inkişafında əhəmiyyətini vurğulayıb. O, Meksika şirkətlərinin azərbaycanlı tərəfdaşlarla əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını diqqətə çatdıraraq, Azərbaycana ticarət missiyasının təşkil olunmasını təklif edib.

Görüşdə Azərbaycan və Meksika arasında iqtisadi əməkdaşlığın inkişafı perspektivləri müzakirə olunub.

# Paytaxt gənclərinin iştirakı ilə "Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır" mövzusunda elmi-praktik konfrans keçirilib

Mayın 1-də Bakı Şəhər İcra Hakimiyyətində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır" mövzusunda elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Ulu Öndərin gənclərə qayğısından bəhs edən videoçarx nümayiş olunub.

Paytaxt gənclərinin təmsilçilərinin, Bakı şəhər idarələrinin, bir sıra ali təhsil müəssisələrinin rəhbərlərinin, tanınmış idmançıların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən elmi-praktik konfransda Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov çıxış edərək Azərbaycanın inkişafı və dünyada tanıdılmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. Bildirib ki, ölkədə həyata keçirilən dövlət gənclər siyasəti dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimiz ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlam düşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlayıb. Qeyd olunub ki, bu gün ölkəmizdə dövlət gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində gənclərin hərtərəfli inkişafı təmin olunub, onlar cəmiyyətin fəal təbəqəsinə çevrilib.

Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Elgin Həbibullayev Ulu Öndər tərəfindən bünövrəsi qoyulan gənclər siyasətinin uğurlarından danışıb. Bildirib ki, gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olub. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan gəncliyi öz intellektual, kreativ və mənəvi-ideoloji yetkinliyi ilə dünya gəncləri arasında qibtə olunacaq nüfuz qazanıb. Buna görə də gənclər Ulu Öndərin həyat yolu və fəaliyyətini dərindən öyrənməlidirlər. Bu işlərdə bu gün keçirilən elmi-praktik konfrans mühüm əhəmiyyət kəsb edir.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, Ulu Öndərin



zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Məhz bu dahi şəxsiyyətin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılıb, daha sonra 2 fevral - Azərbaycan Gəncləri Günü elan edilib. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, onları aparıcı qüvvəyə çevirmək və sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir.

Daha sonra elmi-praktik konfransın məruzələri dinlənilib. Səbail rayonundan Xasay Vəliyev "Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda inkişaf strategiyası və iqtisadi dirçəliş", YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva "İlham Əliyev Heydər Əliyev yolunun davamçısıdır", Binəqədi rayonu 314 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Səbinə Nəsibli "Heydər Əliyev müstəqil Azərbaycanın banisidir", Aprel döyüşlərinin iştirakçısı, polkovnik-leytenant Elşən Qarayev "Heydər Əliyev və ordu quruculuğu", Azərbaycan Gənclər Fondunun beynəlxalq əməkdaşlıq və donorlarla iş şöbəsinin müdiri Vüsalə Niftəliyeva "Heydər Əliyev irsi və Azərbaycanın müasir dövrü", Azərbaycan Tibb Universitetinin tələbəsi Ella Qocayeva "Heydər Əliyevin səhiyyə sahəsində misilsiz xidmətləri", Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının kursantı Rəhman Nadirli "Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizliyi", Suraxanı rayonundan geoloq Murad Arzu oğlu "Heydər Əliyevin dövlət neft strategiyası", AMEA-nın Fəlsəfə İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Tünzalə Musayeva "Heydər Əliyev və milli təhsil konsepsiyası", Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsi Heydər Mirzəzadə "Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və tolerantlıq ənənələrinin inkişafında böyük xidmətləri", Xətai rayonundan Adil Qarayev "Heydər Əliyevin Azərbaycan gəncliyinin inkişafında rolu", Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Rəfail Quliyev "Heydər Əliyev və Azərbaycanda idman siyasəti", Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tədris istehsalat işləri üzrə direktor müavini Aytac Rzayeva "Milli mədəniyyətimiz Heydər Əliyev ideyalarından biri kimi", Nərimanov rayonundan Tələbə Gənclər Təşkilatının sədri Tamerlan Əkbərov "Heydər Əliyev Azərbaycanın müstəqil xarici siyasətinin memarı kimi", Sabunçu rayonu 155 saylı tam orta məktəbin psixoloqu Nigar Rüstəmova "Heydər Əliyevin sağlam və peşəkar mətbuatın formalaşmasında əvəzsiz xidmətləri" mövzularında çıxışlar ediblər.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin II kurs tələbəsi Ayşən Bayramova konfrans iştirakçılarının bəyanatını oxuyub.

Konfransın sonunda tədbirdə çıxış edən və müxtəlif sahələr üzrə məruzələr hazırlamış digər gənclərin işlərinin kitab şəklində çap olunması qərara alınıb.

# Təbii qaz üzrə artırılmış limit necə tətbiq olunacaq?

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin sistemli və ardıcıl sosial siyasətinin davamı olaraq növbəti humanist addım atılıb, dövlət başçısının tapşırığına əsasən, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının aprelin 30-da keçirilmiş iclasında əhali üzrə təbii qazın aşağı tariflə illik istehlak həcmi 1700 kubmetrdən 2200 kubmetrədək artırılıb.

Tarif Şurasının Katibliyindən AZƏRTAC-a bildirilib ki, artıq bu güzəştdən - yalnız aşağı tariflə qaz istehlakından 1,8 milyondan çox abonent (7 milyondan çox vətəndaş) yararlanacaq. Beləliklə, təbii qazı yalnız aşağı tariflə istehlak edən əhali abonentlərinin xüsusi çəkisi 70 faizdən 85 faizədək artacaq. Təbii qazdan güzəştli tariflə istifadə limitinin artırılması ilə əlaqədar olaraq yaranmış fərq bütünlükdə dövlət tərəfindən qarşılanacaq.

Artırılmış limitin tətbiqinə gəlincə, qeyd edək ki, hesablaşma bu il yanvarın 1-dən etibarən istifadə olunan təbii qazın həcminə uyğun olaraq həyata keçiriləcək. Misal: Tutaq ki, abonent mayın 1-dək 1400 kubmetr qaz istehlak edib. Bu halda abonent ilin sonunadək daha 800 kubmetr təbii qazı aşağı tariflə (1 kubmetr üçün 10 qəpik) istifadə edə biləcək. Abonent bu tarixədək əvvəlki limiti (1700 kubmetr) ötübsə, yeni limitədək olan hissə üçün ödədiyi vəsait hesablaşmalarda nəzərə alınacaq.

Əgər abonent il ərzində müəyyən olunmuş yeni limitdən (2200 kubmetr) çox təbii qaz istifadə edərsə, bu halda hesablaşma yeni limitdən artıq hissə üçün 1 kubmetr x 20 qəpik olmaqla həyata keçiriləcək.

Məlumat üçün qeyd edək ki, bir abonentin faktiki orta illik təbii qaz istehlakı 1400 kubmetrdən aşağıdır.

Atılmış bu humanist addım dövlət başçısının ölkə vətəndaşlarına böyük diqqət və qayğısının daha bir nümunəsidir.

# Hikmət Babaoğlu: Bundan sonrakı mərhələdə də Azərbaycan vətəndaşının rifahının təmin olunması ən ön planda gələcək



**"Hazırkı tarixi inkişaf mərhələsində elə iqtisadi resurslar əldə etmişik ki, onun əsasında ən müasir və dinamik iqtisadiyyat qurmaq mümkündür".** Bunu "Trend"ə açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı hazırda iqtisadiyyatımızda yeni inkişaf strategiyasının hazırlandığını bildirdi: **"Bu fikir, əslində, ölkəmizdə bundan sonra da mühüm islahatlar aparılacağı və bu islahatların davamlı olacağına işarə idi. Çünki hazırda iqtisadiyyatın daha da inkişaf etdirilməsi üçün olduqca münbit şərtlər formalaşıb və bu, Azərbaycanda indiyə qədər həyata keçirilən iqtisadi siyasət sayəsində mümkün olub. Bu tarixi inkişaf mərhələsində biz elə iqtisadi resurslar əldə etmişik ki, onun əsasında ən müasir və dinamik iqtisadiyyat qurmaq mümkündür. Yeni iqtisadi inkişaf strategiyasının iqtisadi əsasları bunlardır. Onun sosial aspektlərinə və sosial fəlsəfəsinə gəldikdə isə, əminliklə deyə bilərik ki, yeni strategiya da məhz Azərbaycan vətəndaşının sosial rifahı əsas götürülməklə müəyyən ediləcək. Çünki Prezident İlham Əliyev yeni inkişaf strategiyasından danışarkən bir daha qeyd etdi ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün əlimizdən gələni edirik".**

Hikmət Babaoğlu əlavə edib ki, bu fikirlər, əslində, elə yeni iqtisadi inkişaf strategiyamızın sosial fəlsəfəsi və mahiyyəti kimi qiymətləndirilməlidir: **"Dolayısilə, biz bundan sonrakı mərhələdə də Azərbaycan vətəndaşının rifahının təmin olunmasının ən ön planda gələcəyinə şahid olacağıq. Ancaq şübhəsiz ki, növbəti mərhələdə bəzi məsələlərin də prioritet təşkil edəcəyini gözardı edə bilmərik. Buraya sahibkarlığın daha da inkişafı, yeni sosial-iqtisadi modellərin tətbiqi, ərzaq və qida təhlükəsizliyinin təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi, yeni aqrar-sənaye müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kimya sənayesinin gücləndirilməsi və s. kimi çoxsaylı istiqamətlər daxildir ki, bütün bunlar da Azərbaycan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsini təmin edəcək. Bundan əlavə, icbari tibbi sığortanın tətbiq edilməsi, aztəminatlı ailələrə sosial yardımların edilməsi, sosial problemlərin səmərəli formada öz həllini tapması kimi çoxsaylı prioritet istiqamətlər də daim diqqət mərkəzində olacaq".**

# Yeni Azərbaycan Partiyasının gəncləri ölkəmizdə həyata keçirilən uğurlu siyasətin təbliğatında fəal iştirak edirlər

***YAP Gənclər Birliyinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Ramin Məmmədov www.yap.org.az saytına müsahibə verib:***

**- Ramin müəllim, Yeni Azərbaycan Partiyasının fəaliyyətində gənclərlə iş sahəsinə böyük əhəmiyyət verilir. Partiyamızın bu siyasətinin gənclərin ictimai-siyasi fəallığı və perspektiv inkişafı baxımından əhəmiyyəti nədən ibarətdir?**

- Bilirsiniz ki, YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edirlər və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Partiyamızın 730 mindən artıq üzvü var ki, onların da 40 faizini gənclər təşkil edirlər. Ümumiyyətlə, YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib.

Bilirsiniz ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan gəncliyinə hər zaman qayğı ilə yanaşırdı. Öz növbəsində, Azərbaycan gəncliyi də Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirir. Bu gün Ulu Öndərin müəyyən etdiyi siyasi kursu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və Onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. Görülən effektiv tədbirlərin nəticəsidir ki, hazırda dövlət orqanlarında, bələdiyyə qurumlarında çalışan gənc kadrların sayı hiss olunacaq dərəcədə artır. Gənclərin daim irəli çəkilməsi onların dövlət idarəçiliyinə fəal cəlb olunması deməkdir.

YAP Gənclər Birliyi də bu gün istedadlı, cəmiyyətə və dövlətə xidmət etmək istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür. Partiyanın rəhbər tutduğu azərbaycançılıq ideologiyasının prinsipləri əsasında Azərbaycan gəncləri arasında vətənə sevgi, ölkə sərhədlərindən kənarda Azərbaycanı layiqincə təmsil etmək, milli-mənəvi dəyərlərimizi qorumaq təbliğ olunur.

Təşkilatımızın həyata keçirdiyi çoxsaylı layihələr də gənclərin bilik səviyyəsinin yüksəldilməsinə, liderlik keyfiyyətlərinin formalaşdırılmasına xidmət edir. YAP həm də gənclərin seçkilərdə və digər ölkə əhəmiyyətli proseslərdə fəal iştirakını təmin etmək üçün seçkiqabağı dövrlərdə çoxsaylı tədbirlər keçirir. Eyni zamanda, təşkilatın bir sıra nüfuzlu dövlətlərin hakim partiyalarının gənclər təşkilatları ilə sıx əməkdaşlıq etməsi Azərbaycan gənclərinin beynəlxalq aləmə inteqrasiyası baxımından çox önəmli faktordur. Bütün bunlar isə perspektiv baxımından böyük uğurlar vəd edir. Bu gün gənclər layiqli vətəndaşlar kimi yetişirlər və bu da gələcəyə nikbinliklə baxmağa tam əsas verir.

**- YAP Gənclər Birliyinin V hesabat-seçki konfransına hazırlıq işləri gedir. Bu məqsədlə partiyanın yerli strukturlarında da gənclər birliklərinin hesabat-seçki yığıncaqları keçirilir. Sizcə, yerli təşkilatların gənclər birlikləri hesabat dövründə vəzifələrini hansı səviyyədə yerinə yetiriblər?**

- Bildiyiniz kimi, bu yaxınlarda Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin V hesabat-seçki konfransı nəzərdə tutulur. Artıq bütün respublika üzrə regionlarda və paytaxtımızın rayonlarının əksəriyyətində yerli hesabat-seçki konfransları keçirilir.

Konfranslarda gənclər birliklərinin



ötən müddət ərzində həyata keçirdiyi tədbirlər haqqında hesabatlar təqdim olunur. Bu konfranslar nəticəsində bir daha şahidi oluruq ki, ölkəmizdə yüksək intellektli gənclər formalaşıb, onlar Heydər Əliyev ideyalarına sadiqdirlər və Prezident İlham Əliyevin siyasətini dəstəkləyirlər. Gənclər üzərlərinə düşən vəzifələri yerinə yetirmək üçün bütün imkanlarını səfərbər ediblər. Bu mənada, konfranslarda verilən hesabatlarla bağlı qənaətimiz müsbətdir.

Konfranslarda gənclər birliklərinin yeni heyəti seçilir. Seçim zamanı gənclərin ictimai-siyasi fəallığı, bilik və bacarığı, intellekti və s. vacib amillər əsas götürülür. Deyə bilərəm ki, YAP Gənclər Birliyinin V konfransına hazırlıq işləri başa çatmaq üzrədir.

Bütövlükdə, Yeni Azərbaycan Partiyasının gəncləri ölkəmizdə həyata keçirilən uğurlu siyasətin təbliğatında fəal iştirak edirlər. Çünki müəyyən dairələr ictimai rəyi çaşdırmağa çalışırlar. Ona görə də Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarının fəal, düzgün və əsaslandırılmış formada geniş ictimaiyyət arasında təbliğ olunması vacib məsələdir. Bu baxımdan, gənclərimiz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.

# Nizami rayonunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirilib






Nizami Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirilib.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, tədbir Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ümummilli Liderin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Milli Məclisin deputatlarının, rayon icra hakimiyyəti təmsilçilərinin, kütləvi informasiya vasitələri əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna xidmətlərindən bəhs ediblər. Qeyd edilib ki, azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Ulu Öndər Heydər Əliyev Öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub.

Bildirilib ki, Ulu Öndərin 1993-cü ildə siyasi hakimiyyətə gəlməsi ilə ölkədə iqtisadi, siyasi, hüquqi islahatlar aparıldı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu sahəsində uğurlu addımlar atıldı. Yeni Konstitusiya layihəsi hazırlanaraq referendum yolu ilə qəbul edildi, bazar münasibətlərinə keçidlə bağlı möhkəm qanunvericilik bazası yaradıldı, "Əsrin müqaviləsi" imzalandı. Bundan başqa, milli ordu quruculuğu sahəsində irəliyə doğru mühüm addımlar atıldı, Azərbaycan informasiya blokadasından çıxarıldı. Azərbaycana xarici sərmayənin yatırılması üçün əlverişli biznes mühitinin yaradılması istiqamətində əhəmiyyətli işlər görüldü, qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti yaxşılaşdırıldı.

Vurğulanıb ki, ömrünü xalqımızın, dövlətimizin inkişafına, tərəqqisinə həsr edən Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın milli maraqlarını uca tutub. Ümummilli Lider Azərbaycan dövlətinin, xalqının mənafeyi, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin, demokratiyanın inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün fədakarlıqla çalışıb.

Sonda Yeni Azərbaycan Partiyasına yeni üzv qəbul edilənlərə vəsiqələr, partiyanın işində xüsusi fəallığı ilə seçilən bir qrup şəxsə fəxri fərmanlar və diplomlar təqdim edilib.

# Vüqar Rəhimzadə: Sosial-iqtisadi sahələr üzrə böyük artım və kifayət qədər uğurlu nəticələr əldə edilib

Bu gün Azərbaycanın inkişaf dinamikası bütün dünyada nümunə göstərilir. Ölkəmizdə həyata keçirilən uğurlu siyasət nəticəsində regional və qlobal əhəmiyyətli layihələr gerçəkləşdirilir, insanların rifahı daha da yaxşılaşdırılır, gələcək üçün yeni imkanlar yaranır. Xüsusi olaraq vurğulamaq lazımdır ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə son 15 ildə Azərbaycan zəngin inkişaf dövrü keçib. Son bir ildir ki, yeni sosial-iqtisadi islahatların anonsu verilib və hər birimiz bunun şahidi oluruq. Dövlətimizin başçısının son dövrlərdə imzaladığı fərman və sərəncamlar bir daha bunu sübut edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

Vüqar Rəhimzadə qeyd edib ki, həyata keçirilən mühüm islahatlar nəticəsində sosial-iqtisadi sahələr üzrə böyük artım və kifayət qədər uğurlu nəticələr əldə edilib. Belə ki, 2019-cu ilin birinci rübündə sənaye istehsalı 4,4 faiz artıb, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz, kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İqtisadiyyata 2,8 milyard dollar sərmayə yatırılıb. Bu sərmayənin 2 milyardı qeyri-neft sektoruna qoyulub. Bununla yanaşı, minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkün-



lərə verilən müavinət isə 50 faiz yüksəlib. Eyni zamanda, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər də artıb.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, qaçqın, məcburi köçkün və şəhid ailələrinə diqqət və qayğı da dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Aprelin 30-da Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı bu məsələlərə xüsusi diqqət yönəldib. *"Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülür. Bu proses davam etdiriləcək. Bu, bizim ən prioritet məsələlərimizdən biridir. Bu məsələyə biz daim diqqət göstəririk",* - deyən möhtərəm Prezidentimiz bu kateqoriyadan olan insanlara dövlətin nə qədər həssaslıqla yanaşdığını nümayiş etdirib. Qeyd edək ki, bu il şəhid ailələrinə ən azı 800 mənzil veriləcək. Bütövlükdə, 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin edilib. Qarabağ müharibəsi əlillərinə isə bu il ən azı 600 minik avtomobili veriləcək.

Vüqar Rəhimzadə əlavə edib ki, möhtərəm Prezidentimiz Nazirlər Kabinetinin iclasındakı çıxışında idarəetmə sahəsində də islahatların aparılmasının vacibliyini bildirib. Dövlətimizin başçısı hər zaman qeyd edir ki, məmur xalqın qulluqçusudur və xalqa xidmət etməlidir. *"Mən bunu demişəm, bu gün də, əvvəlki çıxışlarda da. Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə də olacaq... Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcək. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar".* Prezident İlham Əliyevin bu fikirləri bir daha onu göstərir ki, vətəndaş dövlət siyasətinin mərkəzində dayanır. Hesab edirəm ki, sadaladığımız bu və digər faktorlar onu deməyə əsas verir ki, 2019-cu il ölkəmiz tarixində uğurlu il kimi yadda qalacaq.

# YAP Hacıqabul rayon təşkilatı Gənclər Birliyinin IV hesabat-seçki konfransı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Hacıqabul rayon təşkilatı Gənclər Birliyinin IV hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad ediblər.

Konfransda çıxış edən YAP Hacıqabul rayon təşkilatının sədri Hafis Bəşirov ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən, gənclər üçün yaradılan əlverişli şəraitdən danışıb. Bildirib ki, Azərbaycanda dövlət gənclər siyasətinin təşəkkülü və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində gənclərə həmişə böyük qayğı göstərib, onların hərtərəfli inkişafına xüsusi diqqət yetirib.

Tədbirdə çıxış edən millət vəkilləri Rüstəm Xəlilov və Şahin İsmayılov, rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində gənclərimizin qazandıqları nailiyyətlərdən danışıblar.

Konfransda geniş məruzə ilə çıxış edən YAP Hacıqabul rayon təşkilatı Gənclər Birliyinin sədri Saleh Ələsgərov ötən müddət ərzində görülən işlər barədə hesabat verib. Qeyd olunub ki, YAP Hacıqabul rayon təşkilatının 5263 üzvündən 1366-nı gənclər təşkil edir. YAP Hacıqabul rayon təşkilatı Gənclər Birliyinin rayonun ictimai həyatında da mühüm rol oynadığını dilə gətirən S.Ələsgərov qeyd edib ki, YAP üzvü olan gənclər hər zaman dövlət maraqlarının keşiyində dayanmağı özlərinə borc bilirlər.

Məruzə ətrafında edilən çıxışlarda YAP Hacıqabul rayon təşkilatının Gənclər Birliyinin üzvlərinin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmələrindən məmnunluq ifadə olunub, birliyin fəaliyyəti yüksək qiymətləndirilib.

Daha sonra təşkilati məsələlərə baxılıb. YAP Hacıqabul rayon təşkilatı Gənclər Birliyinin yeni Şurasının və İdarə Heyətinin tərkibi müəyyənləşib. Eyni zamanda, səsvermə nəticəsində Firdovsi İbrahimov YAP Hacıqabul rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Konfransda YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr də müəyyənləşdirilib.

# Yevlaxda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir keçirilib






Yeni Azərbaycan Partiyası (YAP) Yevlax rayon təşkilatı və Yevlax şəhər Təhsil şöbəsinin təşkilatçılığı ilə Yevlax şəhər 2 saylı tam orta məktəbdə "Heydər Əliyev və Azərbaycan təhsili" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Sədaqət Şükürova bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bütün sahələr kimi, təhsilə də xüsusi diqqət və qayğı ilə yanaşıb. Ulu Öndərin ölkəmizə rəhbərliyi dövründə təhsilin inkişafı istiqamətində həyata keçirilən siyasət barədə tədbir iştirakçılarına ətraflı məlumat verən Sədaqət Şükürova bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib.

Sonra YAP Yevlax rayon təşkilatının hazırladığı, Ulu Öndər Heydər Əliyevin təhsil siyasətilə bağlı filmə baxış keçirilib.

Tədbirdə çıxış edən YAP Yevlax şəhər təşkilatının sədr müavini, Aparat rəhbəri Əli Quliyev bildirib ki, Heydər Əliyev irsini təbliğ etmək, dahi şəxsiyyətin Azərbaycançılıq məfkurəsini öyrənmək hər bir Azərbaycan vətəndaşının, xüsusən də gənclərin, yetişməkdə olan yeni nəslin vətəndaşlıq borcudur: **"Məhz bu məqsədlə YAP Yevlax rayon təşkilatının tədbirlər planına əsasən biz orta məktəblərdə görüşlər keçiririk. Bu ruhda formalaşan gənclik əsl vətənpərvər vətəndaş olaraq öz ölkəsinin mənafeyini qoruya bilər".**

Çıxış edən Yevlax şəhər Təhsil şöbəsinin əməkdaşı Xaləddin Niftəliyev Ulu Öndər Heydər Əliyevin şərəfli həyat yolundan geniş söz açıb.

Sonda partiya sıralarına yeni qəbul edilmiş bir qrup məktəb müəllimlərinə üzvlük vəsiqələri verilib, həmçinin Yeni Azərbaycan Partiyası ilə sıx əməkdaşlığa və göstərdiyi fəallığa görə məktəbin direktoru Sədaqət Şükürova və direktor müavini Samirə İmanova fəxri fərmanla təltif olunublar.

# İcbari tibbi sığortanın geniş tətbiqi çox ciddi sosial addım olacaq

*Bu sistemin ölkəmizdə tətbiq olunması əhalinin tibbi xidmətlərdən istifadə imkanlarını artıracaq və səhiyyənin maddi-texniki təminatını daha da gücləndirəcək*



*Musa Quliyev: İlk növbədə, hər bir vətəndaşın tibbi xidmətə əlçatanlığı təmin olunacaq*



*İlham Məmmədov: Azərbaycanda səhiyyə sektoru böyük inkişaf yolundadır və icbari tibbi sığortanın tətbiqi bu inkişafı daha da sürətləndirəcək*

Son illər Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatların həyata keçirilməsi, əhalinin sağlamlığının etibarlı şəkildə qorunması, vətəndaşların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu sahədə dövlət siyasətinin prioritetlərini təşkil edir. Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi və səhiyyənin maliyyələşmə sisteminin təkmilləşdirilməsi də bu islahatların mühüm tərkib hissəsidir. Qeyd edək ki, bir neçə ildir ki, ölkəmizdə icbari tibbi sığorta sisteminə keçidlə bağlı Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədovun rəhbərliyi ilə işçi qrupu yaradılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu sistemin tətbiqi ilə əlaqədar Mingəçevir, Yevlax və Ağdaşda pilot layihələr həyata keçirilir. Ümumiyyətlə, icbari tibbi sığortanın məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir. Hökumətin sosial siyasətinin yeni istiqaməti və səhiyyə sahəsində aparılan islahatların davamı olaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyəti səhiyyə sisteminin maliyyələşdirilməsinin yeni iqtisadi əsaslarda qurulmasını təmin edəcək. Həmçinin əhalinin tibbi xidmətlərdən istifadə imkanlarını artıracaq və səhiyyənin maliyyə potensialını gücləndirəcək. Agentlik səhiyyə sahəsinə ayrılan vəsaitlərin daha səmərəli şəkildə əhalinin sağlamlığının yaxşılaşdırılmasına yönəldilməsinə xidmət edəcək. İcbari tibbi sığorta səhiyyə sahəsinə ayrılan bütün vəsaitlərin vahid bir mənbədə cəmləşdirilməsini və əhalinin tibbi xidmətlərdən istifadəsi üçün çəkilən xərclərin bir mənbədən maliyyələşdirilməsini təmin edəcək. İcbari tibbi sığorta sosial həmrəylik, səmərəlilik, şəffaflıq və keyfiyyət prinsipləri əsasında fəaliyyət göstərəcək.

Yeri gəlmişkən qeyd edək ki, gələn ildən etibarən icbari tibbi sığorta sisteminin ölkə üzrə tətbiqi nəzərdə tutulur. Bu məqsədlə Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclis tərəfindən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa 2018-ci il dekabrın 28-də mühüm dəyişikliklər qəbul olunub. 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcək qanunda bütün əhaliyə təcili və təxirəsalınmaz tibbi yardım, habelə ilkin səhiyyə xidməti üçün sığorta haqlarının dövlət büdcəsi tərəfindən ödənilməsi nəzərdə tutulur. Həmçinin ölkə əhalisinin 45 faizini təşkil edən iqtisadi qeyri-fəal əhali, başqa sözlə desək, uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar üçün sığorta haqqı dövlət büdcəsi tərəfindən ödəniləcək. Bu isə dövlət başçısının sosialyönümlü islahatlarının və həssas əhali kateqoriyasına göstərdiyi yüksək qayğının bariz nümunəsidir.

Eyni zamanda, dövlət başçısının 2018-ci il dekabrın 20-də imzaladığı 418 nömrəli Fərmanı ilə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin yaradılması və dövlət tibb müəssisələrinin TƏBİB-in tabeliyinə verilməsi, dövlət tibb müəssisələrinin elektronlaşdırılması, habelə icbari tibbi sığortanın sonrakı inkişafı ilə bağlı qərarlar qəbul edilib.

Aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev qeyd edib ki, icbari tibbi sığortanın tətbiqi ilə bağlı 3 pilot layihənin təcrübəsi çox müsbətdir: **"Biz indi genişmiqyaslı proqramın icra edilməsinə hazırıq. Bu da çox ciddi sosial addım olacaq"**. Ölkə başçısı həmçinin bildirib: **"İcbari tibbi sığorta ilə bağlı görülən işlər gözəl nəticə verir. İki ildir ki, bu proqram icra edilir və pilot layihələr insanları razı salır, vətəndaşlar razıdır, həkimlərin əməkhaqqı qalxır. Yəni bu, ciddi addımlardır və göstərir ki, biz hər bir sahədə yeni addımlar atmalıyıq, dünyanın ən mütərəqqi təcrübəsini Azərbaycana gətirməliyik, tətbiq etməliyik və nəticə etibarilə daha da uğurlu inkişaf modeli ortaya qoymalıyıq"**.

Onu da qeyd edək ki, yeni maliyyələşmə sistemində dövlət vəsaitləri və icbari tibbi sığorta ödənişləri səhiyyənin maliyyələşməsinin başlıca mənbəyi olacaq. Mövcud resurslardan səmərəli və şəffaf şəkildə istifadə icbari tibbi sığortanın digər rəhbər prinsipləridir. Burada məqsəd yeni maliyyələşmə metodlarının tətbiqi ilə tibbi xidmətin keyfiyyətinin daha da stimullaşdırılması, ayrılan dövlət vəsaitlərinin daha ünvanlı və səmərəli istifadəsinin təmin edilməsidir.

Nazirlər Kabinetinin bəhs olunan iclasında çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev bildirib ki, pilot layihə çərçivəsində bir sıra mühüm addımlar atılıb. Belə ki, əhalisi 340 min nəfər təşkil edən pilot ərazilərdə sığorta olunanlar və 30 minə yaxın məcburi köçkün baza zərfi çərçivəsində ödənişsiz tibbi xidmətlərlə təmin edilib və əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükü əhəmiyyətli dərəcədə azaldılıb. Onun sözlərinə görə, tibb müəssisələrinin fəaliyyətində məhsuldarlıq artırılaraq tibbi-iqtisadi rentabellik təmin olunub: **"Mövcud maddi-texniki baza və kadr resursları ilə daha çox pasiyentə xidmət göstərilmiş və nəticədə 2018-ci ildə pilot ərazilərdə ambulator-poliklinik gəlişlərin sayı 1,1 milyon olub, adambaşına düşən həkimə gəlişlərin sayı 3,2 dəfə təşkil edib. Evə yazılan xəstələrin sayı isə 21 min 454 nəfər olmaqla 2016-cı illə müqayisədə 11 faiz artıb. Bununla yanaşı, icbari tibbi sığortanın tətbiqi nəticəsində pilot ərazilərdə anadangəlmə ürək qüsuru ilə doğulan 37 uşaq əməliyyat edilib, onlar əlillikdən xilas edilərək öz sağlamlıqlarına qovuşublar"**.

Zaur Əliyev həmçinin qeyd edib ki, əhalinin icbari tibbi sığorta çərçivəsində yararlana biləcəyi xidmətlərin toplusunu ehtiva edən xidmətlər zərfinin hazırlanması, habelə tibbi xidmətlərin tariflərinin müəyyənləşdirilməsi üzərində işlər aparılır. Həmçinin qarşıya qoyulan mühüm vəzifələrdən biri də səhiyyə işçilərinin gəlirlərinin əmək bazarının tələblərinə uyğun tənzimlənməsidir. Hazırda bu istiqamətdə işlər yekunlaşmaq üzrədir və layihələr ən qısa zamanda aidiyyəti üzrə təqdim olunacaq.

Bu sistemin əhəmiyyətindən danışan Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev deyib ki, tibbi sığorta qanunvericiliyi 1999-cu ildə qəbul olunsa da, obyektiv səbəblərdən indiyədək bu sistemə keçmək mümkün olmayıb. Əsas problem isə maliyyə faktoru ilə bağlı idi. Amma millət vəkili hesab edir ki, hazırda icbari tibbi sığortaya keçmək mümkündür. Onun sözlərinə görə, Azərbaycanın hər yerində səhiyyə xidməti göstərə biləcək klinikalar var. Belə ki, son 15 il ərzində 600-dən çox tibb müəssisəsi tikilib istifadəyə verilib və ya yenidən qurulub: **"Eləcə də kadr hazırlığı yüksək səviyyədədir, sığorta bazarı da inkişaf edir. Sığortanın mühüm komponenti olan iş yerlərində işçilərin əmək müqaviləsinin leqallaşması, əməkhaqlarının artması icbari tibbi sığortaya keçməyə imkan verir. Artıq hökumət bu istiqamətdə konkret addımlar atmaqdadır"**.

M.Quliyev bildirib ki, görülən işlərin sırasına hansı ölkənin modelinin seçilməsi, icbari tibbi sığorta haqqının hansı səviyyədə müəyyən edilməsi, nə qədər insana dövlət tərəfindən icbari tibbi sığorta haqları ödənilməsi, icbari tibbi sığortanın paketi və onun hansı xidmətlər göstərməsinin müəyyənləşdirilməsi və s. məsələlər daxildir. Tibbi sığortaya keçidin bir çox üstünlükləri olduğunu deyən komitənin sədr müavininin sözlərinə görə, onun tətbiqi ilə biz bir sıra problemləri həll etmiş olacağıq. Millət vəkili qeyd edib ki, ilk növbədə hər bir vətəndaşın tibbi xidmətə əlçatanlığı təmin olunacaq: **"Yəni vətəndaşlar cibindən pul xərcləmədən tibbi sığorta vasitəsilə klinikalarda müayinə və müalicə olunacaqlar. Bu sahədə sağlam mühit yaranacaq, hər bir tibb müəssisəsi çalışacaq ki, daha yaxşı xidmət göstərsin, ona sığorta polisi ilə daha çox vətəndaş müraciət etsin, müqavilə bağlasın. Belə olduqda, tibb işçilərinin əməkhaqları da artacaq. Eləcə də hər bir tibb müəssisəsi öz maddi-texniki bazasını gücləndirəcək"**.

Milli Məclisin deputatı İlham Məmmədov da səhiyyə sistemində icbari tibbi sığortaya keçid istiqamətində real addımlar atılmasını yüksək qiymətləndirib. **"Azərbaycanda artıq müalicə və diaqnostikaya ehtiyacı olan insanların çoxdan gözlədiyi icbari tibbi sığortanın tətbiqi sahəsində addımlar atılmağa başlanıb"**, - deyən İ.Məmmədov bu sistemə keçidi zəruri hesab edir. Dünya ölkələrində icbari tibbi sığortadan geniş istifadə edildiyini deyən millət vəkilinin sözlərinə görə, Azərbaycanda müasir səhiyyə infrastrukturunun yaradılması ilə yanaşı, güclü mütəxəssislər də yetişir. **"Azərbaycanda səhiyyə sektoru böyük inkişaf yolundadır. Hesab edirəm ki, icbari tibbi sığortanın tətbiqi bu inkişafı daha da sürətləndirəcək"**, - deyə o vurğulayıb.

**Nardar BAYRAMLI**

# Qırxdan çox ölkənin diplomatları Qazax rayonunun sosial-iqtisadi və mədəni inkişafı ilə yaxından tanış olub









Aprelin 30-da Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik korpusun nümayəndəliklərinin rəhbərləri və onların xanımları ölkəmizin qərb qapısı sayılan Qazax rayonuna səfər ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə reallaşan səfər diplomatlara regionlarımızın inkişafı və bölgələrdə həyata keçirilən sosial və iqtisadi layihələr barədə məlumat vermək, habelə turizmin inkişafı ilə yerində tanış olmaq məqsədi daşıyıb.

Qırxdan çox ölkəni və beynəlxalq təşkilatları təmsil edən diplomatların rayonla tanışlığı ilk olaraq Daş Salahlı kəndində yerləşən Damcılı mağarasından başlayıb.

Məlumat verilib ki, Damcılı mağarası Aveydağ mağaralar qrupundan ən irisidir. Təbii çatlardan süzülən su damcılarına görə bu mağara Damcılı adlandırılıb. Arxeoloji qazıntılar zamanı buradan qədim əmək alətləri və silahlar tapılıb. Mağaradan ocaq külləri, kömür qırıntıları, müxtəlif heyvan sümükləri aşkar edilib. Daş məmulatının hazırlanma texnikası, forması və müqayisəsindən məlum olur ki, Damcılı mağarasında Orta Paleolit, Üst Paleolit, Mezolit və Neolit dövrlərində intensiv yaşayış olub.

Qonaqlara Damcılı mağarası haqqında rus, ingilis və Azərbaycan dillərində məlumatları özündə əks etdirən bukletlər paylanılıb.

Daş Salahlı kəndində yerləşən Qazax Sement Zavodu ilə tanışlıq qonaqlarda rayonun iqtisadi inkişafı haqqında yüksək təəssürat yaradıb. Qazax Sement Zavodu MMC-nin idarə heyətinin sədri Vüqar Süleymanov bildirib ki, bu zavod 2013-cü ildə istifadəyə verilib. Prezident İlham Əliyev Qazax Sement Zavodunun yeni istehsal xəttinin açılışında iştirak edib.

Qeyd olunub ki, Qazax-Gürcüstan sərhədi avtomagistralından Daş Salahlı kəndinə asfalt yol və yolun kənarı ilə zavoda dəmir yolu, eləcə də 110 kilovoltluq yüksəkgərginlikli elektrik xətti çəkilib. Bundan başqa, su xətti, suvarma kanalı, seldən mühafizə bəndi və digər qurğular inşa olunub. Zavodun ərazisində ümumi sahəsi 4 min kvadratmetrdən çox olan altımərtəbəli, 56 otaqlı, dördulduzlu mehmanxana, müasir avadanlıqla təchiz edilən 250 yerlik üçmərtəbəli yeməkxana tikilib. Ümumi sahəsi 3400 kvadratmetr olan 69 otaqlı, beşmərtəbəli inzibati binanın tikintisi də tamamlanıb. Hazırda ərazidə silsilə qurğular inşa edilir. Sement istehsalında istifadə olunan xammalın və hazır məhsulun keyfiyyətinin müntəzəm yoxlanması üçün zavodda kimyəvi və fiziki laboratoriya quraşdırılıb. Laboratoriyada gips, əhəng daşı, mergel, gil, vulkan külü, klinker və sementin növlərinin kimyəvi, fiziki və mexaniki sınaqları həyata keçirilir. Hazırda zavodun illik istehsal gücü 1 milyon ton təşkil edir. Gələcəkdə isə istehsal gücünün artırılaraq 1 milyon 400 min tona çatdırılması nəzərdə tutulub.

Zavod haqqında ətraflı şəkildə məlumat alan qonaqlar sementin son istehsal prosesi ilə də əyani şəkildə tanış olublar.

Diplomatlar Qazax rayonunda düşmənlə sərhəddə, ən ucqar məsafədə yerləşən Məzəm kəndinə də baş çəkiblər. Kənd sakinləri ilə söhbət edən qonaqlara məlumat verilib ki, Ermənistanla 168 kilometr sərhədi olan Qazax rayonunun həmsərhəd kəndlərində yaşayan sakinlər artıq 25 ildən çoxdur düşmən tərəfindən elan olunmamış müharibənin ağrı-acılarını hələ də yaşayırlar. Bu gün Qazax rayonunun Bağanıs Ayrım, Xeyrımlı, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara və Aşağı Əskipara kəndləri hələ də düşmən tapdağı altındadır. Daim erməni silahlı birləşmələrinin atəşi altında olan, sərhədə ən yaxın məsafədə yerləşən kəndlərdən biri də rayonun Məzəm kəndidir. Ermənistan-Azərbaycan münaqişəsi başlayan ilk gündən bu kənd səkkiz şəhid verib. Bu qəhrəman kənddə dörd hərbçi öz kəndinin, ümumilikdə isə Vətənin müdafiəsi uğrunda canından keçib. Dörd nəfər kənd sakini isə düşmən gülləsinin qurbanı olub. Bir nəfər kənd sakini - Mərifət Nəsibov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Bildirilib ki, Məzəm kəndi 1992-ci ildə düşmən tərəfindən işğal olunmasına baxmayaraq, qüdrətli ordumuzun gücü sayəsində yenidən geri qaytarılıb.

Kənddə əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə 57 evin qarşısına 2 min 530 poqonmetr uzunluğunda, 3 metr hündürlüyündə istinad divarları çəkilib. Həmçinin sakinlərin kəndə təhlükəsiz şəraitdə gediş-gəlişini təmin etmək məqsədilə yol kənarına da istinad divarı inşa olunub. Sakinlərlə söhbət edən qonaqlar düşmən tərəfindən zərər çəkmiş evlərə baxıblar.

Sonra nümayəndə heyəti Fəxri qazaxlılar parkında olublar. Burada qonaqlara büstü qoyulmuş şairlər, yazıçılar, aşıqlar, tarixi şəxsiyyətlər və park haqqında ətraflı məlumat verilib. Qeyd olunub ki, bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış nasir, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı İsmayıl Şıxlının anadan olmasının 100 illiyi tamam olur. Prezident İlham Əliyev tərəfindən görkəmli şəxsiyyətin 100 illik yubileyinin respublika səviyyəsində keçirilməsi məqsədilə müvafiq Sərəncam imzalanıb.

Səfər çərçivəsində qonaqlar şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanını da ziyarət ediblər. Qeyd olunub ki, Qazax şəhərindəki Şəhidlər xiyabanı 1990-cı ildə 20 Yanvar hadisələrindən sonra şəhidlərin xatirəsinə salınıb. Bu gün Qazax rayonunun 283 şəhidi, 7 Milli Qəhrəmanı var.

Sonra qonaqlar ötən il 100 yaşı tamam olan Qazax Müəllimlər Seminariyasına gəliblər. Bildirilib ki, 1918-ci ildə Qori Seminariyasının Azərbaycan bölməsi Gürcüstandan Qazax şəhərinə köçürülüb və sovet hakimiyyəti qurulduqdan sonra 1940-cı illərə qədər Qazax Pedaqoji Texnikumu adı ilə fəaliyyət göstərib. Bu tədris ocağının Qazax şəhərinə köçürülməsində görkəmli maarifçi, pedaqoq, metodist, ədəbiyyatşünas, publisist Firidun bəy Köçərlinin çox böyük xidmətləri olub. Seminariyada 1959-cu ilədək 3 minədək kadr yetişdirilib. Qazax Müəllimlər Seminariyasının Səməd Vurğun, Mehdixan Vəkilov, Osman Sarıvəlli, Mehdi Hüseyn, Seyfulla Şamilov, İsmayıl Şıxlı, Mirqasım Əfəndiyev kimi yüzlərlə görkəmli yetirməsi olub.

Qazax Cümə Məscidi ilə tanış olan qonaqların diqqətinə çatdırılıb ki, Qazax Cümə məscidi 1899-cu ildə Kəsəmən kəndindən olan İsrafil ağa Kərbəlayevin təşəbbüsü ilə memar Müzəffər Hüseynovun layihəsi əsasında inşa edilib. Sovet hakimiyyəti dövründə məscid öz fəaliyyətini dayandırmış və yalnız 1990-cı ildən yenidən ibadət yeri kimi fəaliyyətə başlayıb.

Qonaqların ziyarət etdikləri növbəti ünvan Ədəbiyyat Muzeyi olub. Şəhərin mərkəzində, Heydər Əliyev prospektində yerləşən muzeylə tanış olan diplomatlar burada şairlərin həyat və yaradıcılığı haqqında dolğun məlumat əldə ediblər. Azərbaycan Yazıçılar Birliyi Qazax filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal muzey haqqında ətraflı məlumat verərək vurğulayıb ki, muzey 2013-cü ildə istifadəyə verilib və açılışında Prezident İlham Əliyev iştirak edib.

Diplomatların sonuncu tanış olduqları ünvan isə Qazax Tarix-Diyarşünaslıq Muzeyi olub. Bu muzeylə də tanışlıq qonaqlarda xoş təəssürat yaradıb. Muzeyin direktoru Gülnaz Əlişanova bildirib ki, Prezident İlham Əliyev 2016-cı il oktyabrın 19-da Qazax Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışını edib. Muzeyin ikimərtəbəli binasında rayonun təbiətini və tarixini əks etdirən 2 min 450 eksponat mühafizə olunur. Qazaxın qədimdən bu günədək keçdiyi inkişaf yolu, təbiəti, mədəniyyəti, adət-ənənəsi, məişəti, tanınmış insanları haqda olan məlumatlar və eksponatlar maraqla qarşılanıb.

Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəliklərin rəhbərləri Qazaxla tanışlıqdan xoş təəssüratlarla ayrılıblar.

Diplomatları Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi, səfir Pərvin Mirzəzadə müşayiət edib.

# Azərbaycanda ilk "Əşyaların interneti" laboratoriyası yaradılıb



Mayın 1-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzində Azərbaycanda "Əşyaların interneti" laboratoriyasının açılış mərasimi keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi ilə "Microsoft" şirkətinin Azərbaycan nümayəndəliyi arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən yaradılan laboratoriya adıçəkilən mərkəzdə fəaliyyət göstərəcək.

"Microsoft Lab" adlanan laboratoriyanın əsas məqsədi tədris və tətbiq arasında körpü yaradaraq, perspektivli innovativ layihələrin icrasına gənc mütəxəssislərin və startapçıların cəlb edilməsidir. Laboratoriyada "Əşyaların interneti" (İoT) sahəsi üzrə müxtəlif həllər və real prototiplər hazırlamaq mümkün olacaq. Gələcəkdə digər innovativ istiqamətlər üzrə də fəaliyyət genişləndiriləcək.

"Əşyalar interneti" texnologiyası internetə çıxışı olan bütün cihaz və avadanlıqlar vasitəsilə məlumatların toplanması, ötürülməsi və bu məlumatlar əsasında qərar qəbuletmə prosesinin effektivliyinin artırılmasını nəzərdə tutur. Dövlət və özəl təşkilatlar öz fəaliyyətlərində informasiya texnologiyalarının nailiyyətləri və yeni imkanlarını tətbiq etmək istədikləri halda müxtəlif layihə təkliflərini laboratoriyaya təqdim edə biləcəklər. Bu təkliflər əsasında proqramçılar və IT şirkətlər tərəfindən laboratoriyada real layihələr yaradılacaq. Sonradan hazırlanan prototiplərin biznesdə tətbiq edilməsi məqsədilə layihələrə dəstək veriləcək.

İKT-nin Tətbiqi və Tədrisi Mərkəzi "Microsoft" şirkətinin dəstəyi ilə yaradılan innovasiya laboratoriyasının əlaqələndiricisi rolunu oynayacaq. Belə ki, layihə sifarişçiləri və bu sifarişləri icra edəcək startapçılar arasında işgüzar münasibətlər yaradılacaq. Laboratoriyada, həmçinin proqramçılıq və elektronika sahələri üzrə təlimlərin keçirilməsi, mütəxəssislərin sertifikatlaşdırılması və prototiplərin hazırlanması reallaşdırılacaq.

Qeyd edək ki, "www.iktlab.az/mslab" internet səhifəsində "Microsoft Lab" haqqında ətraflı məlumat almaq mümkündür. Burada özəl və biznes qurumları sorğu doldurmaqla reallaşdırmaq istədikləri layihələrin ssenarilərini "Lab"a göndərə bilər. Eyni zamanda, "Əşyaların interneti" sahəsi üzrə layihə icra etmək istəyən proqramçılar və startaplar sayt vasitəsilə qeydiyyatdan keçə bilərlər.

# BSU-da akademik Tofiq Hacıyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib



Aprelin 30-da Bakı Slavyan Universitetində (BSU) Türkologiya kafedrasının təşkilatçılığı ilə dilçi alim, filologiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi, akademik Tofiq Hacıyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib. İştirakçılar tədbirin başlanğıcında akademikin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

BSU-nun Azərbaycan filologiyası və jurnalistika fakültəsinin dekanı, professor Eldar Piriyev "Akademik Tofiq Hacıyevin həyatı, elmi və pedaqoji fəaliyyəti" adlı geniş məruzə ilə çıxış edib. O, Tofiq Hacıyevin Azərbaycanda dilçilik elminin və türkologiyanın inkişafında mühüm rolu olduğunu bildirib.

Tədbirdə çıxış edən Türkologiya kafedrasının müdiri, professor Şaban Hüseynov akademik Tofiq Hacıyevin elmi fəaliyyətinin bütün türk dünyasında dilçilik elminin inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Akademik Tofiq Hacıyevin tələbəsi, Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının dosenti Qızılgül Abdullayeva çıxışında alimin çoxşaxəli yaradıcılığından, səmərəli elmi fəaliyyətindən, respublikamızda dilçilik elminin inkişafına verdiyi töhfələrdən danışıb. Qızılgül Abdullayeva Tofiq Hacıyevin dilçilik elmi sahəsində elmi məktəb yaratdığını və həmin məktəbin bu gün dilçilik elmimizin ən ciddi problemlərinin həlli ilə məşğul olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən BSU-nun Azərbaycan dili kafedrasının müdiri İkram Qasımov, Türkologiya kafedrasının dosenti Nuridə Novruzova, Müasir Rus dili kafedrasının müdiri İlyas Həmidov akademik Tofiq Hacıyevin zəngin elmi və pedaqoji fəaliyyəti, yüksək insani keyfiyyətləri haqqında danışıblar. Diqqətə çatdırıblar ki, akademik Tofiq Hacıyev dilçilik elmimizə üslubiyyət məsələləri ilə bağlı sanballı əsərlər verib. Onlar Tofiq Hacıyevin elmi və pedaqoji fəaliyyətinin tədqiqinin vacibliyini bildiriblər.

Alimin oğlu Azər Hacıyev atası ilə bağlı xatirələrini danışıb. O, tədbirin təşkilində əməyi olan hər kəsə və iştirakçılara dərin minnətdarlığını bildirib.

Qeyd edək ki, akademik Tofiq Hacıyev Nəsimi adına Dilçilik İnstitutunun direktoru, Bakı Dövlət Universitetinin türkologiya kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü olub. O, 438 məqalənin, 11 monoqrafiyanın, 34 kitabın müəllifidir.

Tədbirin sonunda Türkologiya kafedrasının dosenti Xatirə Abdullayevanın Tofiq Hacıyevin həyat və yaradıcılığına həsr etdiyi "Qürubu olmayan günəş" filmi nümayiş olunub.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında ixrac potensialı yüksək olan məhsulların istehsalı genişlənir

## *2019-cu ilin birinci rübündə bölgələrdən meyvə-tərəvəz ixracının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 28,2 faiz artıb*



Məlum olduğu kimi, son 15 il ərzində Azərbaycanda regionların sosial-iqtisadi inkişafı istiqamətində mühüm uğurlar əldə edilib. Bunun əsasında isə dövlət başçısının müvafiq fərmanları ilə təsdiq edilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları dayanır. Məhz ötən 15 il ərzində reallaşdırılan üç Dövlət Proqramı çərçivəsində, eyni zamanda, kənd təsərrüfatının inkişafı istiqamətində də mühüm işlər görülüb. Bunun nəticəsidir ki, 2018-ci ildə kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi əvvəlki illə müqayisədə 4,6 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 6,8 faiz artıb. Keçən il 1,5 milyon tondan çox tərəvəz, 1 milyon tondan çox meyvə və giləmeyvə istehsal olunub. Bu isə müstəqillik dövründə qazanılmış ən yüksək nəticədir. Həmçinin meyvə-tərəvəz məhsullarının ixracı 11,1 faiz artaraq 530 milyon ABŞ dolları olub.

Aqrar sahədə müsbət inkişaf dinamikası 2019-cu ildə də davam edir. Bu ilin birinci rübündə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi istehsal həcmi 3,6 faiz, o cümlədən bitkiçilik 24,7 və heyvandarlıq 2,8 faiz artıb. Ötən ilin müvafiq dövri ilə müqayisədə 32 faiz çox tərəvəz istehsal olunub, meyvə-tərəvəz ixracının həcmi 28,2 faiz artıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən dövlət başçısı da vurğulayıb ki, kənd təsərrüfatı daim diqqət mərkəzindədir: **"Bildiyiniz kimi, dövlət bu sahəyə çox böyük dəstək, yardım göstərir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir. Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir. Həm də onlardan vergilər də tutulmur, torpaq vergisi istisna olmaq şərti ilə. Yəni bu sahəyə maksimum dəstək verilir. Bu sahədə aparılan islahatlar, əminəm ki, daha da böyük nəticələrə gətirib çıxaracaq".**

Qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində kənd təsərrüfatının mühüm ixrac potensialı olan sahələrin dirçəldilməsi istiqamətində atılan addımlar xüsusi əhəmiyyət daşıyır. Qədim ənənələrə malik baramaçılığın, ipəkçiliyin, eləcə də tütünçülüyün dirçəldilməsi də Prezident İlham Əliyev tərəfindən prioritet vəzifələrdən biri kimi müəyyən olunub. Dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər respublikamızda kənd təsərrüfatının ənənəvi sahələrindən olan baramaçılığın və tütünçülüyün inkişafı istiqamətində mühüm işlər görülür. Həyata keçirilən davamlı tədbirlər öz bəhrəsini verməkdədir. Belə ki, 2015-ci ildə respublikamızda 230 kiloqram barama tədarük olunmuşdusa, keçən il yaş barama istehsalı 513 tona çatıb. Bu il isə istehsalın daha da artırılması nəzərdə tutulur.

Vurğulandığı kimi, cari ildə ölkədə yaş barama istehsalının 800 tona çatdırılması ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Çin Xalq Respublikasından 20000 qutu hibrid ipəkqurdu sənaye toxumları (qrena) gətirilib.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildiriblər ki, ölkəyə gətirilən hibrid tut ipəkqurdu sənaye toxumlarının keyfiyyətinə nəzarətin gücləndirilməsi, cinslər üzrə toxum materialının seçiminin düzgün aparılması, yarana biləcək çətinliklərin yerində həll edilməsi məqsədilə nazirliyin Təhsil və təlim şöbəsinin müdiri İmran Cümşüdov, Qax Damazlıq İpəkçilik Stansiyasının direktoru Əkrəm Fətəliyev, Zərdab rayon İcra Hakimiyyəti başçısının müavini Pərvin Mahmudova və "Azəripək" MMC-nin direktoru Nizami Qəribov aprelin 16-dan 23-dək Çin Xalq Respublikasına ezam olunublar. Səfər çərçivəsində nümayəndə heyəti Şandon əyalətində fəaliyyət göstərən Super elit, elit, hibrid ipəkqurdu toxumu istehsalı müəssisələrinin fəaliyyəti, maddi-texniki bazası ilə yaxından tanış olub və yeni intensiv üsulla salınmış tut plantasiyalarına baxış keçirilib. Qeyd edək ki, bu şirkətlərin istehsal etdiyi ipəkqurdu toxumlarının bir hissəsi yerli tələbat üçün istifadə edilir, qalan hissəsi isə Özbəkistan, Tacikistan və Azərbaycana ixrac olunur.

Plana uyğun olaraq Çin Xalq Respublikasından 20 min qutu yüksəkkeyfiyyətli, məhsuldar hibrid ipəkqurdu sənaye toxumları nümayəndələr tərəfindən yerində seçilib, onların iştirakı ilə qablaşdırılıb və hava nəqliyyatı ilə aprelin 23-də ölkəmizə gətirilib.

Yeri gəlmişkən, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Çin Xalq Respublikasından alınaraq ölkəmizə gətirilən 20 min qutu hibrid ipəkqurdu sənaye toxumlarının 1025 qutusu Balakən rayonundakı keçmiş barama toxumu zavodunda inkubasiyaya qoyulub. İpəkqurdu toxumunun inkubasiya müddətinin mayın 2-3-də başa çatacağı gözlənilir. Əldə olunacaq ipəkqurdları daha sonra rayonun kümçülərinə paylanılacaq. Builki mövsümdə Balakəndə yaş barama istehsalının əvvəlki illə müqayisədə 11 tondan çox artırılaraq, 41 tona çatdırılması planlaşdırılır.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Çin Xalq Respublikasından alınaraq ölkəmizə gətirilən 20 min qutu hibrid ipəkqurdu sənaye toxumunun 16 min 875 qutusu Qax Damazlıq İpəkçilik Stansiyasında inkubasiyaya qoyulub. Builki mövsümdə respublikanın 38 rayonunda barama yetişdiriləcək. Stansiyada inkubasiyaya qoyulmuş ipəkqurdu toxumlarından əldə olunacaq ipəkqurdlarının mayın əvvəllərində bölgü əsasında respublikanın 35 rayonunun kümçülərinə paylanılması nəzərdə tutulub. Balakən, Zaqatala və Ucar rayonlarının kümçüləri isə öz rayonlarında inkubasiyaya qoyulmuş toxumlardan əldə olunacaq ipəkqurdlarından barama yetişdirəcəklər. Stansiyada ilkin olaraq, mayın 3-dən 5-dək Aran bölgəsinin 22 rayonunun kümçülərinə ipəkqurdları paylanılacaq. Bölgüyə əsasən, Aran rayonları üzrə ən çox ipəkqurdu toxumu Zərdab rayonunun kümçülərinə veriləcək. Bu rayonun barama istehsalçıları cari mövsümdə 1750 qutu ipəkqurdu toxumu alacaqlar. Aran bölgəsi üzrə Ağcabədi rayonunun kümçülərinə 1500 qutu, Füzuli kümçülərinə 1150 qutu, Bərdə rayonunun barama istehsalçılarına isə 1000 qutu ipəkqurdu toxumu paylanılacaq. Qeyd edək ki, dağlıq ərazidə yerləşən 13 rayonun kümçülərinə isə ipəkqurdlarının mayın 5-dən 8-dək paylanılması nəzərdə tutulub. 2019-cu ildə ölkəmizdə yaş barama istehsalının 800 tona çatdırılması hədəf olaraq qarşıya qoyulub.

Prezident İlham Əliyevin ölkəmizdə baramaçılığın inkişafı ilə bağlı tapşırıq və tövsiyələri respublikamızın hər yerində olduğu kimi, Qazaxda da uğurla icra olunur. Bu sahədə görülən məqsədyönlü işlər nəticəsində rayonda barama istehsalı 2016-cı ildə 1502 kiloqram, 2017-ci ildə 4623 kiloqram olub. Ötən il Qazax kümçüləri tərəfindən 5000 kiloqram yaş baramanın yetişdirilməsi nəzərdə tutulduğu halda, 6260 kiloqram məhsul istehsal olunaraq "Azəripək" ASC-yə təhvil verilib.

Bu il də yüksək məhsuldarlıq əldə etmək üçün xüsusi hazırlıq işlərinə başlanılıb. Belə ki, barama saxlanılacaq yerlər əvvəlcədən hazırlanıb, lazımi tədbirlər görülür. Yaxın günlərdə kümçülərə baramaqurdu veriləcək.

Yuxarıda da qeyd etdiyimiz kimi, ölkə Prezidentinin tapşırıq və tövsiyələri ilə yenidən dirçəldilən kənd təsərrüfatı sahələrindən biri də tütünçülükdür. Ölkəmizin ayrı-ayrı bölgələrində tütünçülük sahəsində tarixən yaxşı ənənələr formalaşsa da, müəyyən bir dövr ərzində tütünçülük yaddan çıxmışdı. Bununla belə, artıq bir neçə ildir ki, bu gəlirli sahənin inkişafı üçün əməli tədbirlər görülməkdədir. Qeyd edilməlidir ki, tütünçülük respublikamızda əsasən Qax, Balakən, Zaqatala kimi rayonlarda geniş yayılsa da, hazırda bu areal daha da genişlənməkdədir. Buna səbəb sahibkarlara göstərilən diqqət və qayğı, eləcə də tütün məhsullarının şirkətlər tərəfindən öncədən müqavilə əsasında alınmasıdır. Yəni artıq təsərrüfat sahibləri öz məhsullarını satmaq problemi ilə qarşılaşmırlar. Hazırda respublikamızda tütünün əkini ilə bir sıra şirkətlər məşğul olur. Bu şirkətlər məhsul istehsalçıları ilə müqavilə bağlayaraq ayrı-ayrı regionlarda tütün əkini həyata keçirir.

Bundan başqa, regionlarda tütün əkilən sahələr də ildən-ilə artmaqdadır. Məsələn, Şəki rayonunun təsərrüfatlarında istixana şəraitində yetişdirilmiş tütün şitillərinin sahələrə köçürülməsi prosesinə başlanılıb. Cari mövsümdə rayonda 950 hektarda tütün əkilməsi planlaşdırılır. İlk günlər rayonun Cumakənd və Şorsu kəndlərinin təsərrüfatlarında 15 hektar sahədə "Virciniya" növ tütün əkilib.

Proqnoza əsasən, builki mövsümdə şəkili fermerlər 691 hektarda "Virciniya" və 29 hektarda "Berley" növ ətirli, 230 hektarda isə yerli tütün sortları yetişdirəcəklər. Ötənilki mövsüm rayonun tütünçüləri üçün çox uğurlu olub. Belə ki, 2018-ci ildə şəkili fermerlər 2 min 976 ton quru tütün istehsal ediblər. Tütün istehsalı əvvəlki illə müqayisədə 346 ton artıb.

Bu il Qax rayonunun təsərrüfatlarında 532 hektar sahədə tütün əkilməsi planlaşdırılır. Bir neçə gündür ki, fermer təsərrüfatlarında istixana şəraitində yetişdirilmiş tütün şitillərinin sahələrə köçürülməsinə başlanılıb. İlk günlər Zəyəm, Qorağan, Tasmalı kəndlərinin təsərrüfatlarında 20 hektara yaxın sahədə "Virciniya" növlü tütün əkilib.

Tütün əkini ilə əlaqədar ilkin olaraq 70 fermerlə müqavilə bağlanılıb. Builki mövsümdə qaxlı fermerlər 517 hektarda "Virciniya" növlü ətirli, 15 hektarda isə yerli tütün sortları yetişdirəcəklər. Qorağan kəndindən olan fermer Telman Şahmalıyev bu il rayon üzrə hamıdan çox - 52 hektarda tütün əkməyi planlaşdırır. Fermer ötənilki mövsümdə 100 ton quru tütün istehsal edib. Xatırladaq ki, 2018-ci ildə rayonda 971,8 ton quru tütün istehsal olunub. Məhsul istehsalı əvvəlki illə müqayisədə 161 ton artıb.

**Pərviz SADAYOĞLU**

# "Azərbaycanda xristianlıq: keçmişdən bu günə" adlı kitab ingilis dilində nəşr olunub

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin aparıcı məsləhətçisi Anar Əlizadənin "Azərbaycanda xristianlıq: keçmişdən bu günə" adlı kitabı ingilis dilində işıq üzü görüb.




AZƏRTAC xəbər verir ki, kitabın ön sözünün müəllifləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, professor Etibar Nəcəfov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən çap olunan kitabda xristianlığın və əsas xristian qollarının tarixi, inanc əsasları, ibadət şəkilləri barədə məlumat verilir. Bununla yanaşı, Azərbaycanda mövcud olan xristian konfessiyaların, dini cərəyan və icmaların etiqadi prinsipləri, onların ölkəmizdəki tarixi, sayı, etnik və yaş tərkibi, humanitar fəaliyyəti və mətbu orqanları haqqında ətraflı məlumat oxucuların diqqətinə çatdırılır. Müəllif ölkəmizdəki xristianlığın rəngarəng və çoxçalarlı tablosunu təsvir etməklə Azərbaycandakı multikultural mənzərəni canlandırır.

Kitabın mühüm əhəmiyyət kəsb edən fəsillərindən biri Alban Apostol Avtokefal Kilsəsi ilə bağlı olan hissədir. Bu fəsildə ermənilərin Qafqaz Albaniyası ilə bağlı əsassız iddialarına tutarlı cavab verilərək erməni yalanları ifşa olunur. Sözügedən tədqiqat əsərində ölkəmizin maddi-mədəni irsi olan Alban kilsələrinin bərpası, mühafizəsi, habelə Alban Həvari Kilsəsinin qədim dini ənənələrinin dirçəldilməsi istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi mühüm tədbirlər barədə geniş məlumat verilməklə yanaşı, tarixi mənbələr əsasında xristian Alban məbədlərinin Azərbaycan xalqına məxsus olduğu sübuta yetirilir.

Kitab xristianlığın tədqiqatı ilə məşğul olan tarixçilər, dinşünaslar, bu mövzuya maraq göstərən KİV nümayəndələri, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Formula 1 SOCAR Azərbaycan Qran-Prisini izləmək üçün Bakıda 74 ölkədən azarkeşlər olub

SOCAR
FORMULA 1 SOCAR AZERBAIJAN GRAND PRIX 2019

Bakıda keçirilən Formula 1 SOCAR Azərbaycan Qran-Prisi çərçivəsində yarış sessiyalarını yerində canlı izləməyə, həmçinin həftəsonunda "Baku Crystal Hall"da dünya ulduzlarının iştirakı ilə keçirilən axşam konsertlərinə ümumilikdə 85 min tamaşaçı gəlib.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətindən (BŞH) AZƏRTAC-a bildiriblər ki, bu il ötənilki qədər bilet satılıb. Xaricdən alınan biletlərin nisbəti 22 faiz təşkil edib. Ötən illə müqayisədə bu il yarış həftəsonu ərzində yarış məkanına gələnlərin sayında bir qədər azalma müşahidə olunub. Buna səbəb əvvəlcədən iştirakı nəzərdə tutulan britaniyalı ulduz Sem Smitin yarışa çox az vaxtın qaldığı bir ərəfədə xəstələndiyi üçün Bakı konsertini ləğv etməsi olub.

Çox sayda xarici azarkeşin rəğbət göstərdiyi yarışda qələbəni "Mercedes" komandasının pilotu Valtteri Bottas qazanıb. Onu komanda yoldaşı Luis Hamilton və "Ferrari"nin sürücüsü Sebastian Fettel izləyiblər. Bottasın zəfər sevinci ötən il yarışın sonuncu dövrələrində qələbəyə gedərkən yaşadığı uğursuz qəzanın verdiyi kədəri tamamilə unutdurub. Onun qələbəsi tribunalarda əyləşən minlərlə azarkeş tərəfindən böyük coşqu ilə qarşılanıb.

Yarışı izləməyə 74 ölkədən azarkeş gəlib. Bu ölkələr arasında Rusiya, Böyük Britaniya, Avstriya, Niderland və Gürcüstandan xüsusilə fərqləniblər.

BŞH-nin kommersiya şöbəsinin rəhbəri Bülent Özərdim yarışı izləməyə gələnlərin statistik göstəriciləri ilə bağlı bildirib: **"Son 4 il ərzində Azərbaycanda Formula 1 yarış həftəsonunun möhtəşəm şəkildə keçirilməsində böyük irəliləyiş əldə etmişik. Avropadan gələn azarkeşlərin sayının artması ilə əsas Formula 1 izləyicilərinin Bakını seçməsi bizi xüsusilə sevindirir. Buna misal olaraq, yarışı izləmək üçün ölkəyə səfər edənlərin sayında 41 faiz artımla Böyük Britaniya, 28 faizlə Avstriyanı və 26 faizlə Niderlandı göstərə bilərik. Bundan başqa, Çin və Türkiyədən gələnlərin sayında da müvafiq olaraq 22 və 11 faiz artım qeydə alınıb. Tribuna biletlərinin hamısı satılıb və cümə günü axşam konsertinin olmamasına, həmçinin Sem Smitin şənbə günü keçirilməsi nəzərdə tutulan çıxışının son anda ləğv olunmasına baxmayaraq, ümumilikdə bilet satışı 2018-ci ildəkinə bərabər olub. Xüsusən gənclər arasında yarışa maraq ilbəil artır və nəticədə hər ötən il yerli azarkeşlərin sıraları daha da genişlənir. Bu, bizi yüksək səviyyədə həvəsləndirir. Düşünürəm ki, hazırda tutduğumuz mövqe olduqca güclüdür və 2020-ci ildə də azarkeşlər üçün daha bir möhtəşəm Formula 1 yarış həftəsonu keçirmək üçün əlimizdən gələni edəcəyik".**

Builki yarış son iki yarış qədər dramatik anlara səhnə olmasa da, Formula 1 azarkeşləri həyəcan dolu anlarla yadda qalan sıralanma turundan və Formula 2 yarışlarından böyük zövq alıblar.

Formula 1 SOCAR Azərbaycan Qran-Prisi tamaşaçıların zövqünə uyğun təklif etdiyi zəngin məzmunlu müxtəlif əyləncə proqramı ilə də avtoidman sevərlərin könüllərini fəth edib. Yarış həftəsonunda dünya musiqisinin məşhur iki ulduzu axşam saatlarında "Baku Crystal Hall"da səhnəyə çıxaraq azarkeşlərə möhtəşəm əyləncə şousu təqdim edib. Şənbə günü sıralanma turundan sonra keçirilən konsertdə Cessi Cey ən sevilən mahnılarını ifa edib, bazar günü isə Kardi B möhtəşəm performansı ilə yarış həftəsonunun bağlanış konsertinə öz damğasını vurub.

Bundan başqa, bu il ilk dəfə olaraq BŞH-nin təşkilatçılığı ilə yarış həftəsonu ərzində "Bakı şəhərinin sədaları" adı altında gecə əyləncə proqramları təşkil olunub. "Elektra Events Hall"da keçirilən proqramda dünyanın məşhur DJ-ləri çıxış ediblər. Aprelin 26-da səhnəyə Ciqan və Mahmut Orhan, ertəsi gün Robin Şulz və ayın 28-də "Lost Frequencies" çıxıb. Biletləri Formula 1 yarışlarından ayrıca satılan bu əyləncə proqramlarında Bakıya Azərbaycan Qran-Prisini izləməyə gələn yüzlərlə xarici avtoidman azarkeşi ilə yanaşı, çox sayda paytaxt sakini də iştirak edib.

# Şamaxıda 18 min 900 nəfərdən çox sakin kütləvi tibbi müayinədən keçib

Şamaxı rayonunda əhalinin kütləvi pulsuz tibbi müayinəsi davam edir və artıq 38 yaşayış məntəqəsində bu humanist aksiya başa çatıb.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən kütləvi pulsuz tibbi müayinələr vətəndaşlar tərəfindən minnətdarlıqla qarşılanıb. Fevralın 12-dən indiyədək 18 min 913 nəfər tibbi müayinələrdən keçib. Müayinə olunanların 4146 nəfəri ambulator, 271 nəfəri stasionar müalicəyə cəlb edilib. 227 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılıb, 344 nəfər isə ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilib.

Əlil və ahıl insanların dispanserizasiyası səyyar həkim briqadası tərəfindən evlərdə aparılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU